RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 186 (8502) ÇƏRŞƏNBƏ AXŞAMI, 15 sentyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

◆ 15 Sentyabr "Bilik Günü"dür

## Təhsilin keyfiyyətinin artırılması yeni nailiyyətlərin qazanılmasına imkan verəcək



Bu gün ölkəmizin bütün şəhər, qəsəbə və kəndlərində başqa əhvali-ruhiyyə yaşanır. Nəhayət ki, insanları ölümlə təhdid edən COVID-19 pandemiyasının üzücü günlərinin nisbətən yüngülləşdiyi bir ərəfədə yeni dərs ilinin başlanmasına icazə verilmişdir. Nəhayət ki, 7-8 aylıq ayrılıqdan sonra orta məktəblərdən tutmuş kollec, texnikum, institut və universitetlər müəyyən qaydalar tətbiq edilməklə qapılarını gənclərin üzünə açmışdır. Yeni dərs ilinin başlanmasına bəlkə də hamıdan çox sevinənlər ilk dəfə məktəbə qədəm qoyan fidan balalar - birincilərdir. Xatırladaq ki, bu gün Azərbaycanda 165 min 511 nəfərdən çox uşaq I sinfə gedəcək.

> **"Elə etməliyik ki, bütün uşaqlar savadlı, bilikli olsunlar, gələcəkdə özləri üçün gözəl həyat qura bilsinlər, dövlətimiz üçün dəyərli vətəndaşlar olsunlar".**
>
> **İlham ƏLİYEV**

Bilik günü məktəb həyatına qədəm basan birincilər üçün həm həyəcanlı, həm də əlamətdar bir gündür. Onlar əlifba ilə tanış olub ilk zəngin sədası ilə məktəb həyatına qədəm qoyacaqlar. Hazırda ölkəmizin bölgələrində 47 məktəb binası şagirdlərin istifadəsinə verilib ki, onlardan 8-i yeni tikilən, 5-i əsaslı təmir olunan, 34-ü modul tiplidir.

Son illərdə Prezident İlham Əliyevin qayğısı, Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr Ulu Öndərin təhsil siyasətinin ugurlu davamının göstəricisidir. Ümummilli Lider Heydər Əliyev tərəfindən təhsilin inkişafına göstərilən diqqət və qayğı dövlət başçısı tərəfindən uğurla davam etdirilir. Ölkəmizin bütün bölgələrində də beynəlxalq standartlara cavab verən yeni məktəb binaları tikilir, günün tələblərinə cavab verən ixtisaslara uyğun ali təsil ocaqları yaradılır. Ənənəyə uyğun olaraq sentyabrın birinci ongünlüyündə dövlət başçısı Bakıdakı 251 nömrəli məktəbdə aparılan əsaslı təmir işləri ilə tanış olub, təhsil müəssisəsinin yeni korpusunun açılışında da iştirak edib. Bu məktəbdə ümumilikdə 1700-ə yaxın şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 100-ə yaxın müəllim məşğul olur. Böyük sıxlıq müşahidə edilirdi. Şagirdlərin təxminən yarısı ikinci növbədə dərsə gəlirdi. Artıq bu problem aradan qaldırılıb. Dördmərtəbəli yeni korpusda kimya, fizika, biologiya laboratoriyaları, 35 sinif otağı, hərbi kabinet, kitabxana, oxu zalı və yardımçı otaqlar bu bayram günündə məktəblilərin zövqüncədir. Bütün otaqlar elektron vasitələrlə və proyektorlarla təchiz olunub. Xatırladaq ki, Bakı məktəbliləri arasında bu təhsil ocağının şagirdləri uğurları ilə fərqlənirlər. Onlar Rumıniyada və Türkiyədə keçirilən müsabiqələrin qalibləri olublar.

Koronavirus infeksiyasının tüğyan etdiyi bir şəraitdə Yardımlı rayonunun Şıxlar və Bilnə kəndlərində modul tipli yeni məktəb binaları şagirdlərin və pedaqoji kollektivin istifadəsinə verilib. Yeni dərs ilindən Şıxlar kəndindən 80, Bilnə kəndindən 40 şagird rahat və hər cür şəraiti olan dərs otaqlarında təhsillərini davam etdirəcəklər. Qeyd edək ki, yaxın vaxtlarda Cəlilabad, Masallı və Yardımlının ucqar kəndlərində daha 15 modul tipli məktəbin quraşdırılması nəzərdə tutulub. Yeri gəlmişkən, Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə indiyədək respublikamızın 45 bölgəsində, ümumilikdə, 293-dən çox modul tipli məktəb quraşdırılıb. Cari ilin sonuna kimi daha 60 modul tipli məktəb istifadəyə veriləcək. Beləliklə, modul tipli məktəblərin quraşdırılması ilə bölgələrdə, xüsusilə, ucqar kəndlərdə qəzalı və istismar müddəti başa çatan məktəblərin problemi tamamilə aradan qaldırılacaq.

Tədris ilinin ilk günündə bu kimi misalların, yeniliklərin, uğurların sayını kifayət qədər artırmaq olar. Xüsusi vurğulanmalıdır ki, günün tələblərinə cavab verən orta məktəb binalarının inşası, bu sahədə infrastrukturun tamamilə yenilənməsi, Azərbaycanda təhsilin inkişafına göstərilən diqqət və qayğı prioritet istiqamətlərdəndir.

Ölkəmizdə ali təhsil müəssisələrinin inkişafına, maddi-texniki bazasının genişləndirilməsinə də xüsusi diqqət yetirilr. Sentyabrın əvvəllərində Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ADA Universitetinin iki yeni korpusunun, eləcə də Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Bakının Yasamal rayonunda yerləşən yenidən inşa olunan 3 saylı tədris korpusunun açılışında iştirakı buna bariz nümunədir.

*Ardı 5-ci səh.*

## Azərbaycanda ilk dəfə sənaye parkı ərazisində peşə təhsili müəssisəsi yaradılıb



**"Sumqayıt Kimya Sənaye Parkı" Məhdud Məsuliyyətli Cəmiyyətinin nəzdində Peşə Təhsil Mərkəzinin açılışı olub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı mərkəzdə yaradılan şəraitlə tanış oldu.

*Ardı 2-ci səh.*

## Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi zəruridir



**Bakının Suraxanı rayonunun Əmircan qəsəbəsində Murtuza Muxtarov adına park istifadəyə verilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev parkın açılışında iştirak edib.**

Dövlət başçısı məşhur neft milyonçusu və görkəmli mesenat Murtuza Muxtarovun parkdakı büstünün önünə gül dəstəsi qoydu.

*Ardı 2-ci səh.*

## Prezident qəsəbə sakinlərinin arzusunu gerçəkləşdirdi



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Suraxanı rayonunun Əmircan qəsəbəsində Milli Qəhrəman Albert Aqarunovun adını daşıyan 154 nömrəli məktəbin yeni binasının açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Milli Qəhrəman, cəsur tankçı Albert Aqarunovun məktəbin həyətindəki büstünün önünə gül dəstəsi qoydu.

*Ardı 2-ci səh.*

## İnkişafa yol açan fəaliyyət

### Heydər Əliyev Fondunun ölkədə aparılan təhsil islahatlarına misilsiz töhfələri var



Bəşəriyyətin keçib gəldiyi tarixi yol təhsilin fərdlər, ümumən cəmiyyət üçün nə qədər böyük önəm daşıdığını təsdiqləyir. Bu gün dünyanın inkişaf etmiş bütün ölkələri öz tərəqqilərinə görə məhz təhsilə borcludurlar. Elm-bilik mühitinin yaradılmasına dəstək isə hər bir şəxsiyyətin aid olduğu xalqa, dövlətə verə biləcəyi ən böyük töhfədir.

Son illər iqtisadiyyatımız, elmimiz, təhsilimiz daha geniş inteqrasiya proseslərinə cəlb olunub. Həyata keçirilən tədbirlər sayəsində həm infrastruktur yenilənir, həm də kadr potensialı müasir dünyanın tələblərinə uyğun tərzdə formalaşdırılır. Ölkəmizin iqtisadi qüdrəti gənclərimizin yeni bilik, bacarıq, informasiya və texnologiyaları mənimsəmə qabiliyyəti ilə bilavasitə bağlıdır. Ona görə də Prezident İlham Əliyev intellektual potensialın zənginləşdirilməsini, elm və təhsil ocaqlarımızın iqtisadi islahatlarla həmahəng inkişafını öz çıxışlarında dönə-dönə aktuallaşdırır.

Hazırda aparılan köklü islahatlar bu sahənin müasir standartlara cavab verən yeni bir mərhələyə keçidini təmin edir. Reallaşdırılan prosesin əsas amili olan kadr potensialının formalaşdırılması missiyasını isə Azərbaycan təhsili yerinə yetirir. Ona görə də dövlət başçısı milli təhsil sistemimizin ölkənin inkişaf tələblərinə uyğunlaşdırılmasını, müasir çağırışlara hazır olmasını mühüm istiqamət kimi qarşıya qoyur.

### Ali məqsəd

Ölkə təhsilinin inkişafında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın gördüyü işlər maarifçilik tariximizin böyük bir səhifəsini təşkil edir.

*Ardı 5-ci səh.*

## İlham Əliyev iqtisadi islahatları daha mükəmməl məcraya yönəldir

Dövlət başçısının fərmanı ilə Azərbaycan Respublikasının İqtisadi Şurasının yaradılması islahatları daha mükəmməl məcraya yönəltməyə, atılan bütün iqtisadi addımları vahid sistem şəklində tətbiq etməyə zəmin yaradır.

Dünya iqtisadiyyatında baş verən qlobal geriləmələr, koronavirus pandemiyası ilə bağlı gündəmə gələn iqtisadi böhranın fəsadları hər bir dövləti yeni çağırışlara uyğunlaşmağa vadar edir. Azərbaycanın makroiqtisadi göstəricilərində, islahatların reallaşmasında sabitliyin qorunması üçün zamanın nəbzinə uyğun strateji siyasətin qurulması xüsusi əhəmiyyət daşıyır. Ölkəmizdə iqtisadiyyatın neft gəlirlərindən asılılığının minimuma endirilməsi ilə yanaşı, maliyyə sabitliyinin təmin olunması zərurətə çevrilir.

*Ardı 3-cü səh.*



## Sərt karantin sürətlə yumşalır

### Qarşıda duran əsas vəzifə isə COVID-19-un yayılmasına, yeni yoluxma nöqtələrinin yaranmasına imkan verməməkdir

Azərbaycan dövləti koronavirus pandemiyası ilə mübarizə sahəsində ardıcıl tədbirləri davam etdirir. Səmərəli maarifləndirmə, müvafiq tibbi infrastrukturun yaradılması, profilaktika və müalicə məsələlərinin keyfiyyətli şəkildə həll olunması, xüsusi karantin rejiminin tətbiqi və mərhələli qaydada məhdudlaşdırıcı - yumşaldıcı tədbirlərin həyata keçirilməsi, vətəndaşların məsuliyyəti, dövlət-vətəndaş həmrəyliyi uğurlu nəticələrin əldə olunmasına rəvac verib.

Koronavirusun dünyaya yayılmağa başladığı ilk dönəmlərdən etibarən, Azərbaycanın infeksiyaya qarşı uğurlu fəaliyyəti və qəbul edilən zəruri qərarlar ölkəmizdə pandemiyanın təsirlərini minimuma endirməyə imkan verib, vəziyyəti nəzarət altında saxlamaqda xüsusi rol oynayıb.

*Ardı 7-ci səh.*

# Prezident qəsəbə sakinlərinin arzusunu gerçəkləşdirdi





*Əvvəli 1-ci səh.*

Məktəbdə yaradılan şəraitlə tanış olan Prezident İlham Əliyevə bu təhsil ocağı haqqında məlumat verildi.

Bildirildi ki, məktəbin əvvəlki binası 1936-cı ildə inşa edilmişdi. Məktəbin 460 şagird yerlik binasında 22 sinif otağı var idi. Məktəbin binası yararsız vəziyyətdə olduğundan sökülərək yerində 58 sinif otağından ibarət 960 şagird yerlik müasir bina inşa olunub və yeni dərs ilində şagirdlərin istifadəsinə veriləcək.

Məktəbdə tikinti işləri 2019-cu ilin aprelində başlayıb və bu ilin avqust ayında başa çatdırılıb. Yeni binada sinif otaqları ilə yanaşı, kimya, fizika laboratoriyaları, informatika kabineti, kitabxana, bufet və idman zalı var. Yeni təhsil ocağında şagirdlərin təlim-tərbiyəsi ilə 52 nəfərdən ibarət pedaqoji heyət məşğul olacaq. Sinif otaqları və laboratoriyalar müasir zəruri avadanlıqlarla təchiz olunub. Məktəbin həyətində geniş abadlıq işləri aparılıb.

Qeyd edək ki, bu təhsil ocağının şərəfli həyat yolu hər bir məktəbli üçün nümunə olan Albert Aqarunovun adını daşıması gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi işində mühüm rola malikdir.

# Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi zəruridir





*Əvvəli 1-ci səh.*

Azərbaycan Prezidentinə parkda görülən işlər və yaradılan şərait barədə məlumat verildi.

Bildirildi ki, qəsəbənin Cabir Əliyev küçəsində yerləşən keçmiş "7 Qoç" parkı 1992-ci ildə salınıb. Uzun illər parkın ərazisində heç bir təmir işləri görülməyib. Qəsəbə sakinlərinin müraciəti nəzərə alınaraq parka əslən Əmircandan olan, XIX əsrdə ilk qazma avadanlığı zavodu açan və qazma dəzgahı ixtira edən xeyriyyəçi Murtuza Muxtarovun adı verilib, burada onun büstü qoyulub.

Heydər Əliyev Fondunun dəstəyi ilə iki ay ərzində burada genişmiqyaslı abadlıq işləri aparılıb, gözəl və müasir park yaradılıb.

## Quba rayonunun Susay-Xınalıq avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Səkkiz min nəfər əhalinin yaşadığı 8 yaşayış məntəqəsini birləşdirən Susay-Xınalıq avtomobil yolunun tikintisinin başa çatdırılması məqsədilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşunun (investisiya xərclərinin) bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 20,1 milyon (iyirmi milyon bir yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 sentyabr 2020-ci il*

# Azərbaycanda ilk dəfə sənaye parkı ərazisində peşə təhsili müəssisəsi yaradılıb









*Əvvəli 1-ci səh.*

İqtisadiyyat naziri Mikayıl Cabbarov və "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin direktoru Nazim Talıbov Prezident İlham Əliyevə Peşə Təhsil Mərkəzi barədə məlumat verdilər.

Bildirildi ki, Peşə Təhsil Mərkəzinin binası 500 tələbənin təhsil alması üçün nəzərdə tutulub. Mərkəzin binası 6 korpusdan ibarətdir. Korpuslarda 23 tədris otağı, 13 laboratoriya, 154 nəfərlik akt zalı, 184 nəfərlik yeməkxana, kitabxana, kompüter otağı, idman zalı və 24 inzibati otaq var.

Hazırda Peşə Təhsil Mərkəzinə 2020/2021-ci tədris ili üzrə torna və frezer dəzgahlarının, proqramla idarə olunan dəzgahların operatorları, elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru, sənayedə quraşdırma işləri üzrə usta, veb-dizayner və proqram təminatçısı ixtisasları üzrə tələbə qəbulu həyata keçirilir.

Mərkəzin təhsil proqramı beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanıb. Tədris prosesinə Sumqayıt Kimya Sənaye Parkının rezidentlərinin mütəxəssisləri cəlb olunub. Tələbələrin ixtisas fənləri üzrə dərslərinin 80 faizi Sumqayıt Kimya Sənaye Parkının müəssisələrində keçiriləcək. Həmçinin praktiki dərslərin təşkili məqsədilə mərkəzdə təlim avadanlıqları stendləri quraşdırılıb.

Qeyd edək ki, sənayeləşmə Prezident İlham Əliyevin iqtisadi siyasətinin mühüm tərkib hissəsidir. Əsas məqsəd tələbatın ödənilməsində yerli məhsulların payının artırılması, ixrac potensialının yüksəldilməsi, ümumilikdə, neft-qaz amilindən asılılığın daha da azaldılmasıdır. Bu strategiyanın uğurlarını Sumqayıt Kimya Sənaye Parkının timsalında real rəqəmləri əks etdirən statistikada görmək olar. Belə ki, 2019-cu ilin birinci yarım ili ərzində burada 258 milyon manatlıq məhsul istehsal edilmişdisə, 2020-ci ilin müvafiq dövründə 2 dəfə çox - 534 milyon manatlıq məhsul buraxılıb. İxrac isə 2019-cu ilin ilk 6 ayındakı rəqəmlə (121 milyon manat) müqayisədə 1,5 dəfə artaraq 2020-ci ilin birinci yarısında 182 milyon manat təşkil edib.

**Prezident İlham ƏLİYEV:** Hesablayın, ümumiyyətlə, illik ümumi daxili məhsul hansı həcmdədir.

**Mikayıl CABBAROV:** Möhtərəm cənab Prezident, Sizin tapşırığınızla hazırda Prezident Administrasiyasının aidiyyəti qurumları ilə hər bir bölgəmiz üçün ümumi daxili məhsulun, investisiyaların cəlb edilməsi, adambaşına düşən ümumi daxili məhsulun hamısının qiymətləndirilməsini aparırıq.

**Prezident İlham ƏLİYEV:** Bəli, qiymətləndirin. Çünki mən dəfələrlə icra başçıları ilə görüşlərdə demişdim ki, onların fəaliyyətinin əsas istiqamətlərindən biri də məhz bunlar olmalıdır - investisiyaları cəlb etmək, iş yerləri yaratmaq, eyni zamanda rayon və şəhərlərdə gedən işlərə təkan vermək.

Xatırladaq ki, hazırda Sumqayıt Kimya Sənaye Parkında məhsul istehsalı və ixrac istiqamətində müsbət dinamika mövcuddur. Ümumilikdə, 2019-cu ildə Sumqayıt Kimya Sənaye Parkında 823 milyon manatlıq məhsul istehsal edilib ki, bunun da 276 milyon manatı - təqribən 33 faizi ixrac olunub. 2020-ci ilin ilk 6 ayı ərzində 534 milyon manatlıq məhsul istehsalı ilə Sumqayıt Kimya Sənaye Parkının ölkə sənayesinin qeyri-neft sektorunda (5,7 milyard manat) xüsusi çəkisi 9,3 faiz, 182 milyon manatlıq ixracla ölkə üzrə qeyri-neft sənaye məhsullarının ixracında (910 milyon manat) xüsusi çəkisi 20 faiz təşkil edib. Hazırda parkda fəaliyyət göstərən müəssisələrdə 5500-dən çox insan daimi işlə təmin olunub.





**Prezident İlham ƏLİYEV:** Mən demişəm ki, Sumqayıt bu gün nəinki Azərbaycanın, Cənubi Qafqazın ikinci böyük sənaye mərkəzidir. Sumqayıtın potensialı daha da güclənir. Bu il burada şüşə istehsalı zavodu da fəaliyyətə başlayacaq. Oraya da böyük investisiyalar qoyulub və bizi şüşə ilə təmin edəcəkdir. Baxmayaraq ki, indi tikinti sektoru pandemiyaya görə bir qədər tənəzzülə uğrayıb, amma o, bərpa edilir və ediləcək. Biz özümüzü yerli şüşələrlə təmin edəcəyik. Bu da böyük nailiyyətdir.

Biz daxili tələbatı nə qədər mümkünsə, yerli məhsullar hesabına təmin etməliyik. Burada Sumqayıt şəhərinin və xüsusilə Kimya Sənaye Parkının mühüm rolu var. Çünki biz son illərdə bu işləri görməklə buna böyük dərəcədə müvəffəq olmuşuq. İndi əsas işimiz ondan ibarətdir ki, baxmalıyıq, harada bizdə idxaldan asılılıq daha böyükdür və bunu əvəzləmək mümkündürsə, bunun üçün xammal varsa, yaxud da texniki-iqtisadi əsaslandırma buna imkan verirsə, mütləq həmin sahələrə böyük diqqət göstərilməlidir. Belə təşəbbüs göstərən şirkətlərə həm rezident statusu verilməlidir, eyni zamanda dövlət tərəfindən onlara kömək göstərilməlidir, güzəştli kreditlər ayrılmalıdır ki, biz idxaldan asılılığımızı maksimum dərəcədə azaldaq. Çünki hər bir ölkə buna çalışır və xüsusilə əhalisi artan ölkə - Azərbaycan buna mütləq çalışmalıdır.

Təbii ki, bizim neft yataqlarımız nə vaxtsa tükənəcək. Düzdür, biz yaxın müddətdə həm yeni neft, həm də qaz yataqlarının istismarına başlayacağıq, çalışacağıq ki, hasilat səviyyəsi sabit olaraq qalsın. Ancaq bizim əsas gəlir mənbəyimiz olan "Azəri", "Çıraq", "Günəşli" yataqlarında təbii tənəzzül də qaçılmazdır. Biz bu boşluğu məhz qeyri-neft sektoru hesabına təmin etməliyik. Tədiyə balansını müsbət səviyyədə saxlamaq üçün, əlbəttə ki, bizə çox keyfiyyətli ixracyönümlü məhsul istehsal edən, valyuta gətirən müəssisələr lazımdır. Çünki bu gün tədiyə balansımızın müsbət səviyyədə saxlanmasının əsas səbəbi neft-qaz amilidir. Amma biz çalışmalıyıq ki, bu amili kənara qoymaqla ixrac-idxal əməliyyatlarında həmişə müsbət saldoya malik olaq. Ona görə ixracyönümlü və idxalı əvəzləyə biləcək istehsalat sahələri mütləq yaradılmalıdır. Burada siqaret fabriki fəaliyyətə başlayıb və artıq statistikada görürük ki, idxaldan asılılıq nə qədər azalıbdır. Elədirmi?

**Mikayıl CABBAROV:** Bəli.

**Prezident İlham ƏLİYEV:** Çünki biz bu fabrik işə düşənə qədər daha çox idxaldan asılı idik. İndi biz 300 milyon manata qənaət etmişik. Eyni zamanda bu fabrikin inkişaf potensialı da var. Mən fabrikin açılışında demişdim, çalışın ikinci, üçüncü xətləri də qurun ki, istehsalat artsın və biz bu məhsulu ixrac edə bilək. O vaxt da demişdim, mən elə onu istəyirəm ki, bu məhsulun hamısı ixraca getsin, Azərbaycanda heç kim siqaret çəkməsin və daxili tələbat olmasın. Amma, əlbəttə ki, bu, mümkün deyil, ancaq buna çalışmalıyıq. O cümlədən təbliğat işlərimizi düzgün qurmalıyıq, bundan başqa, təbii ki, qadağalar qüvvəyə minibdir. Ona görə mən bu fabriki gələcəkdə sırf ixracyönümlü müəssisə kimi görürəm və belə misallar çox gətirmək olar. İndi bizim tütün istehsalımız, keyfiyyətli avadanlığımız var. Mən deyirdim ki, tütün istehsalı olmayan bəzi ölkələr nə üçün bizə məhsul ixrac edir. Onlar tütünü xaricdən alırlar və sonra onu emal edib satırlar. Düzdür, siz də bilirsiniz ki, siqaret istehsalında biz xarici tütündən də asılıyıq. Ancaq qarşıya vəzifə qoyulub ki, yerli tütünçülərdən də məhsul alınsın və beləliklə, kənd təsərrüfatının inkişafına da təkan verilsin.

Bu gün biz Sumqayıt Kimya Sənaye Parkının timsalında yeniləşən, güclənən Azərbaycanı görürük. Xüsusilə yada salmalıyıq ki, bu ərazidə nələr olub, biz bu qərarı verəndə bu ərazi hansı vəziyyətdə idi. Çürümüş, dağılmış, fəaliyyətini başa vuran müəssisələr, həm ekoloji fəlakət zonası, həm də ki, istifadəsiz qalan torpaqlar idi. İndi isə burada yüzlərlə hektar sahədə sənaye parkı qurulubdur. Sahəsi nə qədərdir?

**Mikayıl CABBAROV:** Ümumi ərazisi 508 hektardır.

**Prezident İlham ƏLİYEV:** 508 hektar, amma yəqin ki, hələ genişlənəcək.

"Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin direktoru **Nazim TALIBOV:** 80 faizdən çox məskunlaşıb, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:** Yaxın iki-üç ildə tam dolacaq?

**Nazim TALIBOV:** Bu dinamika ilə getsək, bəli, yaxın iki-üç ildə tam dolacaq.

**Prezident İlham ƏLİYEV:** Ona görə yeni ərazilər lazımdır. Burada, Sumqayıtın ətrafında belə ərazilər çoxdur. Siz bəlkə o ərazilər üçün də artıq indidən plan işləyib tərtib edəsiniz ki, - o yerlərin təmizlənməsi, kommunikasiyaların çəkilməsi və digər lazımi məsələlər, - bu iş dayanmasın. Çünki xarici investorların ölkəmizə marağı artır, mən yerli investorları da istiqamətləndirmişəm ki, Azərbaycana pul qoysunlar. Beləliklə, burada inkişaf o qədər sürətli olmalıdır ki, həm işsizlik aşağı səviyyədə olsun, həm idxaldan asılılıq minimuma endirilsin, həm də ixrac qabiliyyətli məhsullar istehsal edilsin.

**Mikayıl CABBAROV:** Möhtərəm cənab Prezident, biz Sizin çağırışınıza artıq sahibkarlardan reaksiya alırıq - həm Azərbaycanda, həm də ölkəmizdən kənarda fəaliyyət göstərən iş adamlarından. Baxmayaraq ki, biz hələ mövcud karantin dövründə yaşayırıq, amma əlaqə saxlanılıb, müraciətlər var. Mən güman edirəm ki, növbəti bir il ərzində bu çağırışın da real nəticələri barədə Sizə məruzə olunacaq.

**Prezident İlham ƏLİYEV:** Çox yaxşı. Eyni zamanda, əlbəttə, mən çıxışımda xaricdə yaşayan azərbaycanlı iş adamlarına da müraciət edirdim ki, onlar da gəlib Azərbaycana vəsait qoysunlar. Azərbaycan onların vətənidir və onlar hər zaman Azərbaycanın dəstəyini görürlər, güclü Azərbaycan onların da gücünü artırır. Ona görə azərbaycanlılar müxtəlif ölkələrdə iqtisadiyyat, kommersiya, biznes sahələrində böyük uğurlar əldə ediblər. Onlar da öz vətəninə vəsait qoymalıdırlar, öz vətəni ilə daim əlaqə saxlamalıdırlar, öz uşaqlarını Azərbaycan dəyərləri əsasında, milli ruhda tərbiyə etməlidirlər ki, övladları həm Azərbaycan dilini bilsinlər, həm də bizim milli dəyərlərimizi yaşatsınlar. Əgər biz bütün bu amilləri düzgün istiqamətə səfərbər edə bilsək, onda Azərbaycana investisiya axını dayanmayacaq. Bizim də əsas məqsədimiz budur. Xüsusilə dünyada yaşanan, pandemiya nəticəsində dərinləşən böhran, əlbəttə ki, bir çox şirkətlərə mənfi təsir göstərib. Ancaq məhz bu şəraitdə biz elə addımlar atmalıyıq ki, postpandemiya dövrünə ən hazırlıqlı ölkələr sırasında olaq və dərhal, vaxt itirmədən yeni inkişaf dinamikasına sahib olaq.

Qeyd olunduğu kimi, Sumqayıt Kimya Sənaye Parkının ərazisinin təxminən 85 faizində müəssisələr yaradılıb. Bu templə yaxın 2-3 il ərzində parkın ərazisi tam dolacaq. Bu, Prezident İlham Əliyevin müəyyənləşdirdiyi sənayeləşmə strategiyasının uğur göstəricisi kimi də qiymətləndirilməlidir. Strategiya özündə gələcəyə aydın baxışı və daimi inkişafı ehtiva edir.

**Prezident İlham ƏLİYEV:** Mən qeyd etdiyim kimi, Sənaye Parkının gələcək inkişafı ilə bağlı təkliflər hazırlayın, yerləri seçin. Çünki yenə də deyirəm, belə templə ki, biz gedirik 2-3 ilə bütün bu yerlər dolacaq və 508 hektarda yer qalmayacaq. Ona görə baxın, harada biz bunu davam etdirə bilərik. Şərt deyil ki, bu əraziyə bitişik olsun, buradan bir qədər kənarda ola bilər, amma əsas odur ki, bu yerə rezident statusu veriləcəkdir. Təmizlik, kommunikasiya işlərinə bəlkə də elə bu ildən, vaxt itirmədən başlamaq olar. Çünki bu da vaxt aparacaq. Biz o zaman bu ərazini təmizləyəndə buna təqribən bir il vaxt lazım oldu. Həm təmizləmə, ondan sonra kommunikasiya işləri. Ona görə bəlkə ilin sonuna qədər müəyyən vəsait də ayrıla bilər ki, yeni seçilmiş yerdə biz bu işləri görək, növbəti investorlar artıq maraq göstərəndə vaxt itirməsinlər.

* * *

Beləliklə, Sumqayıt Kimya Sənaye Parkının ümumi inkişaf tendensiyası yeniliklərə münasibətilə fərqlənir. Elə nəzdində açılışı olan Peşə Təhsil Mərkəzini də bu xüsusda fərqləndirmək olar. Çünki ilk dəfədir ki, ölkədəki sənaye parkı ərazisində peşə təhsili müəssisəsi yaradılır, bununla da bir neçə strateji hədəfə nail olunur: tələbələrə müasir infrastruktura malik mərkəzdə dövrün tələbinə uyğun bacarıqlar və peşə vərdişləri aşılanacaq. Təlim-tədris prosesində iştirak edəcək mütəxəssislər elə parkın rezidentlərinin yüksəkixtisaslı işçilərindən olacaq. Öz növbəsində tələbələr də Sumqayıt Kimya Sənaye Parkının müəssisələrində təcrübə keçməklə, iş yeri əldə etmək imkanı qazanacaqlar.

# *Prezident Rəcəb Tayyib ƏRDOĞAN:*
# "Türkiyə-Azərbaycan dostluğu əbədidir"





Xəbər verildiyi kimi, sentyabrın 12-də Milli Məclisin Sədri Sahibə Qafarova İstanbulda Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşüb.

AZƏRTAC xəbər verir ki, görüş imkanına görə Türkiyə dövlətinin başçısına təşəkkür edən Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını və ən xoş arzularını Prezident Rəcəb Tayyib Ərdoğana çatdırdı.

Milli Məclisin Sədri bildirdi ki, Azərbaycan və Türkiyə bütün taleyüklü məsələlərdə bir-birini dəstəkləyir və bir-birinə arxalanırlar. O dedi: "Ermənistanın iyulun 12-də Tovuz rayonu istiqamətində törətdiyi təxribatla bağlı şəxsən Sizin, Xarici İşlər naziri cənab Mövlud Çavuşoğlunun, Milli Müdafiə naziri cənab Hulusi Akarın bəyanatları Azərbaycan xalqı tərəfindən çox böyük təqdirlə qarşılandı. Biz qardaş Türkiyənin dəstəyini hər zaman hiss etmişik və bu dəstəyin birmənalı şəkildə ifadə olunmasına görə Sizə və Türkiyə hökumətinin üzvlərinə dərindən təşəkkür edirik".

Sahibə Qafarova qeyd etdi ki, bölgədə baş verən hadisələrin Türkiyə üçün doğurduğu təhdidlər ciddidir, biz bunu görürük. "Bununla belə, Türkiyə dövlətinin, ən əsası isə Zati-alinizin bu təhdidlərə qarşı qətiyyətli mövqeyiniz Azərbaycan ictimaiyyəti tərəfindən də təqdir olunur. Suriya, İraq, Liviya, Qaradəniz, Aralıq dənizi və Egey dənizində vermiş olduğunuz mücadilə türk xalqının haqlı maraqlarını qorumaq üçün verilən milli mücadilədir. Biz bunun fərqindəyik. Bir neçə gün əvvəl Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Yunanıstanın Azərbaycanda yeni təyin olunmuş səfirini qəbul edərkən də dediyi kimi, biz Azərbaycan olaraq bu haqlı mübarizəsində qardaş Türkiyənin yanındayıq və nə olursa-olsun qardaş Türkiyə Cümhuriyyətini dəstəkləyəcəyik. Çünki Türkiyə, sadəcə, bizim strateji tərəfdaşımız deyil, qardaş dövlətimizdir. Azərbaycan və Türkiyə liderləri olaraq cənab İlham Əliyevlə Sizin aranızda mövcud olan səmimi dostluq və qardaşlıq ölkələrimiz arasında da olan münasibətlərə və dəstəyə əlavə təkan verir", - deyə Spiker əlavə etdi.

Milli Məclisin Sədri Qara dənizdə kəşf edilən təbii qaz yatağı ilə bağlı Prezident Rəcəb Tayyib Ərdoğanı təbrik etdi və bunun qardaş ölkənin enerji ehtiyaclarının təmin olunmasında mühüm rolunu vurğuladı.

Öz növbəsində, Prezident Rəcəb Tayyib Ərdoğan yeni seçilmiş parlamentə uğurlar arzuladı. Türkiyə dövlətinin başçısı onun salamlarını və ən xoş arzularını Azərbaycan Prezidenti İlham Əliyevə çatdırmağı xahiş etdi.

Prezident bildirdi ki, Türkiyə və Azərbaycan iki qardaş ölkələrdir. "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir. Ölkələrimiz beynəlxalq platformalarda daim eyni mövqedən çıxış edir, taleyüklü məsələlərdə bir-birini dəstəkləyirlər. Bu günlərdə Prezident İlham Əliyevin Yunanıstanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edərkən söylədiyi sözlər buna bariz nümunədir. Buna görə başda Prezident İlham Əliyev olmaqla bütün qardaş Azərbaycan xalqına bir daha təşəkkürümüzü bildiririk", - deyə dövlət başçısı qeyd etdi.

Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu və bundan sonra da hər zaman belə olacağını diqqətə çatdırdı.

İki ölkənin bölgədə birgə həyata keçirdikləri iqtisadi layihələrə toxunan Rəcəb Tayyib Ərdoğan bildirdi ki, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars layihələri strateji əməkdaşlığımızın bir parçasıdır. Prezident iki qardaş ölkənin parlamentləri arasındakı münasibətlərdən də məmnunluğunu ifadə etdi. O, beynəlxalq təşkilatlarda Azərbaycan və Türkiyə parlamentarilərinin birlikdə və çiyin-çiyinə fəaliyyət göstərməsi üçün geniş imkanların olduğunu diqqətə çatdırdı.

# YAP ermənilərin Dağlıq Qarabağda qanunsuz məskunlaşdırılması ilə bağlı beynəlxalq ictimaiyyətə müraciət ünvanlayıb

Yeni Azərbaycan Partiyası (YAP) ermənilərin Dağlıq Qarabağda qanunsuz məskunlaşdırılması ilə bağlı beynəlxalq ictimaiyyətə, beynəlxalq siyasi partiya təşkilatlarına və tərəfdaş siyasi partiyalara müraciət ünvanlayıb. Bu barədə AZƏRTAC-a YAP-ın Mətbuat xidmətindən məlumat verilib.

Müraciətdə qeyd olunur ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərinin 20 faizini işğal altında saxlayan Ermənistan Azərbaycana qarşı düşmənçilik siyasətini genişləndirməkdə və regionda vəziyyəti daha da gərginləşdirən addımlar atmaqda davam edir.

Beynəlxalq ictimaiyyətin diqqətini erməni vəhşiliklərinə, təxribatlarına, eləcə də ayrı-ayrı ölkələrdən olan ermənilərin Azərbaycanın işğal altındakı ərazilərində qeyri-qanuni məskunlaşdırılmasına cəlb etmək məqsədi daşıyan müraciətdə həmçinin bildirilir: "İyul ayında Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində xüsusi yeri olan neft və qaz kəmərlərinin keçdiyi bölgəyə yaxın ərazidə, Ermənistan-Azərbaycan dövlət sərhədində bir mülki azərbaycanlının və çoxlu sayda hərbçinin ölümü ilə nəticələnən silahlı qarşıdurma yaradan Ermənistan bundan qısa müddət sonra sərhədin başqa hissəsində hərbi təxribata cəhd etdi.

Hərbi təxribatları intensivləşdirən, eyni zamanda destruktiv, məsuliyyətsiz ritorika ilə sülh danışıqlarını pozan Ermənistan rəhbərliyi indi də Azərbaycanın işğal edilmiş ərazilərində qanunsuz məskunlaşdırma siyasətinin yeni və daha aqressiv mərhələsinin başlanğıcını qoyur.

Azərbaycan da daxil olmaqla dünya ölkələri Livanda baş vermiş faciənin nəticələrinin aradan qaldırılması, bu ölkəyə humanitar yardım göstərilməsi ilə məşğul olarkən, Ermənistan bu faciədən işğal etdiyi ərazilərin demoqrafik vəziyyətini dəyişmək üçün sui-istifadə edir. Erməni mənbələrinin yaydığı məlumatlara görə, artıq Livandan bir neçə erməni ailəsi Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində yerləşdirilib və mümkün qədər çox Livan ermənisinin bu prosesə cəlb edilməsi planlaşdırılır.

Ermənistan uzun illərdir ki, Yaxın Şərqin bəzi ölkələrindən gətirilən erməniləri Azərbaycanın Dağlıq Qarabağ bölgəsində və ona bitişik rayonlarında qeyri-qanuni şəkildə yerləşdirməkdədir. Ermənistan tərəfindən həyata keçirilən qanunsuz məskunlaşma faktı ATƏT-in faktaraşdırıcı missiyalarının müvafiq hesabatlarında da əksini tapıb.

Ermənilərin Dağlıq Qarabağda qanunsuz məskunlaşdırılması Ermənistanın "repatriasiya" və "humanitar yardım" adı altında ilhaq siyasətinin bir hissəsidir. Məskunlaşdırma siyasətinin aparılması və işğal olunmuş ərazilərin demoqrafik tərkibinin məqsədyönlü şəkildə dəyişdirilməsi cəhdləri beynəlxalq humanitar hüququn, o cümlədən 1949-cu il Cenevrə konvensiyalarının kobud şəkildə pozulmasıdır. Müharibə dövründə mülki əhalinin qorunmasına dair 4-cü Cenevrə konvensiyasına əsasən, işğalçı dövlət öz mülki əhalisini işğal etdiyi əraziyə köçürməməlidir.

Beynəlxalq hüquqa əsasən, təcavüzkar dövlət tərəfindən işğal olunmuş ərazilərdə məskunlaşdırma siyasətinin aparılması müharibə cinayəti hesab edilir və bu baxımdan Ermənistan Azərbaycanın işğal altındakı ərazilərində apardığı qeyri-qanuni məskunlaşdırma ilə növbəti müharibə cinayətini törətməkdədir.

İstehza doğuran faktdır ki, bu əməli ilə Ermənistan təkcə beynəlxalq hüququ deyil, elə öz qanunlarını da pozur. Ermənistanın Cinayət Məcəlləsinin 390-cı maddəsində təcavüzkar dövlətin işğal olunmuş ərazilərdən əhalini çıxararaq öz əhalisini məskunlaşdırması beynəlxalq humanitar hüququn ciddi pozuntusu sayılır və buna görə 8-12 illik həbs cəzası nəzərdə tutulur. Qeyd edək ki, Ermənistan Suriya və Livandan işğal olunmuş ərazilərə köçürülmüş insanları silahlı muzdlular kimi də istifadə edərək, onları özünün avantürist siyasətinin qurbanlarına çevirir.

Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarında yaratdığı və idarə etdiyi qondarma rejim isə son günlər ölkəmizin digər ərazilərini də işğal etmək niyyətini bildirərək, əhalinin sıx məskunlaşdığı Gəncə şəhərini raket atəşinə tutmaqla hədələyib.

Danışıqlardan faktiki olaraq imtina edən, Azərbaycan ərazilərinin ilhaqına yönələn açıq təxribatçı çağırışlar və hərəkətlər edən Ermənistanın siyasi və hərbi rəhbərliyi vəziyyətin son dərəcə gərginləşməsinə, baş verə biləcək istənilən təxribata və silahlı insidentə görə məsuliyyət daşıyır".

Yeni Azərbaycan Partiyasının beynəlxalq təşkilatlara müraciətində eyni zamanda bildirilir ki, Azərbaycan hər zaman olduğu kimi, münaqişənin beynəlxalq hüquqa, ərazi bütövlüyü və suverenliyə hörmət prinsipinə, eləcə də Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinə əsaslanan həllinə nail olmaq məqsədinə sadiqdir.

Yeni Azərbaycan Partiyası beynəlxalq ictimaiyyəti, beynəlxalq siyasi partiya təşkilatlarını və tərəfdaş siyasi partiyaları bölgədə sülhün, sabitliyin və ədalətin təmin olunması naminə Ermənistanın təxribatçı əməllərini pisləməyə və Azərbaycanın işğal altındakı ərazilərinə qanunsuz köçürməyə son qoyulmasını tələb etməyə çağırır.

# İlham Əliyev iqtisadi islahatları daha mükəmməl məcraya yönəldir

*Əvvəli 1-ci səh.*

Yeni yaranan İqtisadi Şuranın artıq ilk iclasında bu qurumun vacib tapşırıqların və ən mürəkkəb iqtisadi problemlərin kollegial müzakirəsinə imkan verən və ortaq məxrəcə gəlməyə şərait yaradan əlverişli platforma kimi fəaliyyət göstərəcəyi diqqətə çatdırılmışdır.

Qeyd edək ki, İqtisadi Şuranın yaradılması ölkə mediasında ən geniş müzakirə olunan mövzulardan birinə çevrilmişdir. Ekspertlər və iqtisadçılar bu qurumun fəaliyyətindən gözləntilərini şərh edir, onun iqtisadi məsələlərin həllində, perspektivlərin təyin edilməsində hansı rol oynayacağını proqnozlaşdırmağa çalışırlar. Bildirirlər ki, Maliyyə Sabitliyi Şurasının ləğv edilərək əvəzində İqtisadi Şuranın yaradılması sosial-iqtisadi sahədə islahatların vahid mərkəzdən əlaqələndirilməsini təmin etməyə xidmət edən çevik idarəetmə sisteminin tətbiqinə imkan verən düşünülmüş qərardır. Belə ki, İqtisadi Şura sələfindən fərqli olaraq daha geniş səlahiyyətlərə və daha operativ idarəetmə alətlərinə malikdir. İqtisadçılar müsbət hal kimi onu qeyd edirlər ki, əgər Maliyyə Sabitliyi Şurasına Prezidentin köməkçisi rəhbərlik edirdisə, İqtisadi Şuraya rəhbərliyi bilavasitə Baş nazir həyata keçirir. Bu addımla bir tərəfdən, İqtisadi Şuranın hüquqi statusu gücləndirilir, digər tərəfdən, Nazirlər Kabinetinə verilən səlahiyyətlərin dairəsi genişlənir. İqtisadi Şuranın sələfindən fərqli olaraq qərar qəbul etməyə təsiri və prosesləri koordinasiya imkanları daha genişdir.

Ekspertlərin fikrincə, əvvəlki qurum daha çox maliyyə sektorundakı proseslər üzrə səlahiyyətlərə malik idisə, yeni şuranın vəzifəsi iqtisadiyyatın bütün sahələri üzrə dərinləşdirilmiş strategiyaların reallaşdırılmasından ibarətdir. Bu səlahiyyətlərin istiqamətləri fərmanda geniş əksini tapmışdır. Şura idarəetmə çərçivələrinin hazırlanması, iqtisadi, siyasi, sosial sahələrdə təşəbbüslərin göstərilməsini təmin, eyni zamanda biznes və investisiya mühitinin radikal yaxşılaşdırılması, yeni təşviq mexanizmlərinin hazırlanması, on ildə iqtisadiyyatın iki dəfə böyüdülməsi kimi xüsusi əhəmiyyət kəsb edən vəzifələri icra etməlidir.

Azərbaycan Prezidentinin tələbi odur ki, İqtisadi Şura iqtisadi siyasətin çərçivələrinə dair proqram hazırlasın, dövlət investisiyalarına paralel olaraq özəl yerli və xarici investisiyaların cəlb edilməsini gələcək iqtisadi siyasətin aparıcı istiqamətinə çevirsin, həmçinin özəl sektorun lokomotiv rolunu təmin etməklə investisiya mühitinin yaxşılaşdırılması üçün ciddi və radikal addımlar atsın. İqtisadi Şura iqtisadiyyatın bütün sahələrində, o cümlədən fiskal, monetar və maliyyə-bank sahələrində, real sektorda, özəl investisiyaların təşviq edilməsində, dövlət müəssisələrinin fəaliyyətinin tənzimlənməsində, sosial müdafiə sisteminin səmərəliliyinin artırılmasında, səhiyyə və təhsilin inkişafında dünyada mövcud olan uğurlu modellər əsasında təkliflər hazırlamalı, fərmanda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi məqsədilə yerli və xarici ekspertlərin, beynəlxalq təşkilatların və elmi müəssisələrin təcrübəsindən və təkliflərindən faydalanmalıdır.

Şuranın ilk iclasında aparılan müzakirələr, verilən təkliflər belə qənaətə gəlməyə imkan verir ki, dövlət başçısının yeni qurumun qarşısında qoyduğu iqtisadi vəzifələrə məsuliyyətlə yanaşılacaq. Çünki İqtisadi Şura üzərinə düşən məsələlərin mürəkkəbliyini tam dərk edir və bu istiqamətdə lazımi tədbirlərin operativ şəkildə görülməsini təmin edə bilən intellektual imkanlara və geniş səlahiyyətlər paketinə malikdir. Əhəmiyyətli amillərdən biri də odur ki, şuranın fəaliyyəti dövlət başçısının diqqət mərkəzində olacaqdır.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Milli Məclis Sədrinin müavini Adil Əliyev qəbul imtahanlarında yüksək bal toplayan tələbələrlə görüşüb

Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev builki qəbul imtahanında ən yüksək nəticə göstərərək 700 bal toplamış gənclərlə görüşüb.



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı Sədr müavini ölkəmizdə bütün sahələrdə dinamik inkişafın müşahidə edildiyini, o cümlədən təhsil sistemində nəzərəçarpacaq müsbət dəyişikliklərin olduğunu, bu tendensiyaların hazırda da uğurla davam etdiyini bildirib.

Adil Əliyev vurğulayıb ki, Prezident İlham Əliyevin təhsilə göstərdiyi diqqət və qayğı nəticəsində nəzərdə tutulan işlər uğurla yerinə yetirilir. Belə ki, hazırda ali təhsil sahəsində ikili diplom proqramları icra edilir və həmin proqramların tərkib hissəsi olaraq gənclərimizin xarici ölkələrdə təhsillərini davam etdirməsi məqsədilə lazımi şərait yaradılır. O bildirib ki, həyata keçirilən islahatların ana xəttində insan kapitalının inkişafı mühüm yer tutur. Bu baxımdan ölkənin gələcək tərəqqisinin məhz savadlı, vətənpərvər gənclərin əlində olduğunu əminliklə bildirib. Adil Əliyev gənclərə milli-mənəvi dəyərlərimizə bağlı, layiqli vətəndaş olaraq yetişmələrini, təhsildə qazandıqları uğurların ardıcıl olmasını arzulayıb.

Qəbulda imtahanda ən yüksək - 700 bal toplamış Əziz Kərimli və Hüseyn Abdullayev görüşə görə minnətdarlıqlarını bildiriblər. Tələbələr qazandıqları uğurları mütəmadi olaraq dərslərə ciddi hazırlaşmalarında gördüklərini deyərək, artıq gələcəkdə sahib olmaq istədikləri ixtisasları seçdiklərini qeyd ediblər.

Adil Əliyev bir daha gənclərimizi təbrik edərək, onlara təhsildə uğurlar arzulayıb. O, Milli Məclisin Gənclər və idman komitəsinin gənclərin fəaliyyətini daim yaxından izlədiyini, gələcəkdə də onlarla əməkdaşlığı davam etdirmək niyyətində olduğunu bildirib.

# Azərbaycan və İran nazirləri Astaraçay üzərində yeni körpünün tikintisinə dair müzakirələr aparıblar

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə ilə İran İslam Respublikasının Yollar və Şəhərsalma naziri Məhəmməd Eslami arasında virtual görüş keçirilib.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə hər iki ölkənin Xarici İşlər nazirliklərinin nümayəndələri də iştirak ediblər.

Videobağlantı zamanı iki ölkə arasında nəqliyyat sahəsində əməkdaşlığın hazırkı vəziyyəti və inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

Danışıqlarda Astaraçay üzərində yeni avtomobil yolu körpüsünün və piyada keçidinin tikintisi ilə bağlı görüləcək işlər müzakirə olunub. Sözügedən körpünün tikintisinin həyata keçirilməsi üçün müqavilə-hüquq bazasının yaradılması məqsədilə Hökumətlərarası Anlaşma Memorandumu layihəsi üzrə işlərin sürətləndirilməsinə dair razılığa gəlinib.

Qeyd edək ki, son illərdə Azərbaycanla İran arasında avtomobil nəqliyyatı ilə ikitərəfli və tranzit yükdaşımalarının həcmi artıb. Hazırda istifadə olunan Astaraçay üzərindəki avtomobil yolu körpüsünün istismar müddəti başa çatdığı üçün Astara (Azərbaycan Respublikası) - Astara (İran İslam Respublikası) sərhəd-keçid məntəqəsinin ərazisində, Astaraçay üzərində yeni avtomobil yolu körpüsünün və piyada keçidinin tikintisi zərurəti yaranıb.

Videogörüşdə həmçinin iki ölkə arasında nəqliyyat əlaqələri, "Şimal-Cənub" nəqliyyat dəhlizi, İran ərazisində həyata keçirilən layihələr, gələcəkdə yükdaşımaların inkişaf etdirilməsi məsələləri müzakirə olunub.

Sonda tərəflər COVID-19 pandemiyası şəraitində keçirilən onlayn müzakirələrin tezliklə ənənəvi görüşlərlə əvəz olunacağına ümidvar olduqlarını bildiriblər.

# Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin iclası keçirilib

Sentyabrın 14-də Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin iclası keçirilib. AZƏRTAC xəbər verir ki, komitənin sədri Səməd Seyidov Milli Məclisin payız sessiyasının başlanması münasibətilə deputatlara təbriklərini çatdırıb, VI çağırış dövründə parlamentdə aparılan islahatları təqdir edib.



S.Seyidov Milli Məclisin Sədri Sahibə Qafarovanın ilk rəsmi səfərinin uğurla başa çatdığını bildirib. Vurğulayıb ki, Spiker Azərbaycanda mövcud olan ənənəyə əsasən, ilk rəsmi səfərinə Türkiyədən başlayıb. Sahibə Qafarovanın qardaş ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğan, Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop, nazirlər və bir sıra digər rəsmilər ilə görüşləri göstərdi ki, Azərbaycan-Türkiyə əlaqələri ən yüksək müstəvidədir.

Sonra iclasın gündəliyi barədə məlumat verən S.Seyidov əvvəlcə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin 2020-ci ilin yaz və növbədənkənar sessiyaları ərzində gördüyü işlər barədə hesabatı təqdim edib. Bildirib ki, hesabat dövründə komitənin 6 iclası keçirilib, 22 məsələyə baxılıb, onlardan 20-si Milli Məclisin müzakirəsinə tövsiyə olunub. Həmin məsələlər arasında qardaş Türkiyə, Bolqarıstan, İtaliya, Türkmənistan və digər ölkələrlə müxtəlif sahələrdə əməkdaşlığın dərinləşməsinə xidmət edən sazişləri xüsusi vurğulamaq olar.

S.Seyidov qeyd edib ki, sessiyalar dövründə komitə üzvləri parlamentin beynəlxalq əlaqələrinin inkişafı sahəsində böyük fəallıqla çalışıblar. Baş verən ictimai-siyasi proseslərlə, iyul ayında Ermənistanın Azərbaycana qarşı törətdiyi növbəti təxribatla əlaqədar həm ölkə mətbuatında, həm də xarici mətbuatda hadisələrin mahiyyətini açıb göstərən məqalələrlə çıxış ediblər. Sosial şəbəkələrdə mühüm məlumatlar yerləşdiriblər; beynəlxalq təşkilatlarla, xarici ölkələrin parlamentarları ilə zəruri yazışmalar apararaq Tovuz rayonundakı sərhəddə ermənilərin təxribatçı hücumlarının əsl mahiyyətini açıqlayıblar. Təsadüfi deyil ki, yaz və növbədənkənar sessiyalar dövründə komitəyə 2429 müraciət daxil olub və onların hamısı cavablandırılıb.

Pandemiya şəraitinə baxmayaraq, komitə üzvləri seçicilərlə müntəzəm əlaqə saxlayıb, görüşlər keçiriblər. COVID-19-la əlaqədar yaranmış vəziyyətdə yerlərə səfər edərək daim seçicilərin yanında olub, maarifləndirmə işləri aparıb, lazımi kömək göstəriblər.

Məlumat dinlənildikdən sonra deputatlar hesabatı məqbul sayıblar və komitənin 2020-ci ilin payız sessiyası üçün nəzərdə tutulmuş iş planını təsdiqləyiblər.

Sonra komitə sədri "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin əqli mülkiyyət obyektlərinə hüquqların qorunması sahəsində gömrük orqanlarının qarşılıqlı fəaliyyəti haqqında" Sazişin təsdiq edilməsi barədə qanun layihəsini şərh edib. Deputatlar bu qanun layihəsini də plenar iclasa tövsiyə ediblər.

Komitənin iclasında cari məsələlərə baxılıb. Aparılan fikir mübadiləsi zamanı komitənin sədr müavini Sevinc Fətəliyeva, deputatlar Asim Mollazadə, Elman Nəsirov, Kamran Bayramov, Rasim Musabəyov, Sabir Rüstəmxanlı, Sevil Mikayılova, Tural Gəncəliyev, Nəsib Məhəməliyev, Ramil Həsən, Ramin Məmmədov və Sahib Alıyev beynəlxalq təşkilatlarla münasibətlərin daha səmərəli qurulması, xaricdə yaşayan azərbaycanlılarla sıx əlaqələrin yaradılması, Ermənistanın işğalçılıq niyyətlərinin və əməllərinin beynəlxalq miqyasda ifşa edilməsi, Livan ermənilərinin qeyri-qanuni olaraq Dağlıq Qarabağa köçürülməsinin və məskunlaşdırılmasının qarşısının alınması və sair aktual məsələlərə dair rəy və təkliflərini bildiriblər.

İclasda müzakirə edilən məsələlər Milli Məclisin plenar iclasına tövsiyə olunub.

## Atəşkəs rejimi 32 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 32 dəfə pozub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikasının Berd rayonunun Ayqepar, Mosesqex və Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Ağdam, Koxanəbi və Əsrik Cırdaxan kəndlərində, Çəmbərək rayonunun Cil kəndində yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Yusifcanlı, Füzuli rayonunun Qaraxanbəyli, Qorqan, Horadiz, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## Ermənistan silahlı qüvvələrinin bölmələri Tovuz rayonunun Əlibəyli kəndini atəşə tutub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhədə vəziyyəti yenidən gərginləşdirməyə cəhd edir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sentyabrın 13-də axşam saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Tovuz rayonunun Əlibəyli kəndini atəşə tutub.

Azərbaycan Ordusunun bölmələri tərəfindən dərhal həyata keçirilən cavab tədbirləri nəticəsində düşmən susdurulub, itki yoxdur.

## Misir mətbuatı Prezidentin köməkçisi Hikmət Hacıyevin Ermənistanın qeyri-qanuni məskunlaşdırma siyasəti barədə açıqlamasını yayıb

Misirin nüfuzlu "Akhbarelyom" qəzeti, habelə "Asiaelyoum" informasiya agentliyi və "Aldiplomasy" internet nəşri Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin Ermənistanın qeyri-qanuni məskunlaşdırma siyasəti, son günlər xüsusilə Livandan olan ermənilərin Azərbaycanın işğal olunmuş ərazilərinə köçürülməsi siyasəti barədə AZƏRTAC-a verdiyi açıqlamanı yayıblar.



Misir ictimaiyyətinə məlumat verilir ki, H.Hacıyev sosial şəbəkələrdə Livandan olan ailənin Azərbaycan xalqı üçün böyük tarixi və mənəvi əhəmiyyətə malik Şuşa şəhərində yerləşdirilməsi barədə məlumatlar yayıldığını bildirib. O əlavə edib ki, Azərbaycan da daxil olmaqla dünya ölkələri Livanda baş vermiş faciənin nəticələrinin aradan qaldırılması, Livana humanitar yardım göstərilməsi ilə məşğul olarkən Ermənistan bu faciədən, insanların iztirablarından özünün çirkin məqsədləri naminə sui-istifadə edir. Bununla da Ermənistan onun üçün heç bir mənəvi dəyərlərin olmadığını nümayiş etdirir.

Açıqlamada işğal olunmuş Azərbaycan ərazilərində məskunlaşdırılmış əhalinin faktiki olaraq Ermənistanın məsuliyyətsiz, avantürist siyasətinin qurbanına çevrildiyi vurğulanır. "Hamı bilməlidir ki, Azərbaycanın işğal olunmuş ərazilərində həyata keçirilən qeyri-qanuni məskunlaşdırma siyasətinin heç bir hüquqi qüvvəsi yoxdur və Azərbaycan onun nəticələrini tamamilə rədd edir", - deyə Azərbaycan rəsmisi qeyd edir. Habelə diqqətə çatdırılır ki, Ermənistan Suriya və Livandan işğal olunmuş ərazilərə köçürülmüş insanları silahlı muzdlular kimi də istifadə edir.

Prezidentin köməkçisi qeyd edib ki, Ermənistan qeyri-qanuni məskunlaşdırma siyasəti həyata keçirməklə işğal etdiyi Azərbaycan ərazilərində demoqrafik vəziyyəti dəyişməyə çalışır. Qanunsuz məskunlaşdırma siyasəti beynəlxalq humanitar hüququn, o cümlədən 1949-cu il Cenevrə Konvensiyalarının kobud şəkildə pozulmasıdır. Müharibə dövründə mülki əhalinin qorunmasına dair 4-cü Cenevrə Konvensiyasına əsasən, işğalçı dövlət öz mülki əhalisini işğal etdiyi əraziyə köçürməməlidir.

1946-cı ildə Əsas Hərbi Cinayətkarların məhkəmə işində Nürnberq Beynəlxalq Hərbi Tribunalı müttəhimlərin ikisinin işğal olunmuş ərazilərin etnik tərkibinin dəyişdirilməsinə görə təqsirli olduğu barədə qərar vermişdi.

Misir mətbuatı H.Hacıyevin açıqlamanın sonunda dediyi sözləri oxucuların diqqətinə çatdırır: "Ermənistan-Azərbaycan münaqişəsinin həll edilməsində irəliləyişə nail olmaq üçün Ermənistan qoşunları Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmalıdır. Münaqişə yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı çərçivəsində həll olunmalıdır".

## Avropanın analitik portalı Prezidentin köməkçisi Hikmət Hacıyevin Ermənistanın qeyri-qanuni məskunlaşma siyasəti barədə şərhini dərc edib

Avropa İttifaqının nüfuzlu "Bridge" analitik-informasiya portalı Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində apardığı qeyri-qanuni məskunlaşma siyasəti barədə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin AZƏRTAC-a şərhini dərc edib **(https://bridge.ideasoneurope.eu/2020/09/13/hajiyev/).**




İngilis dilində dərc edilmiş şərhdə son günlər bu torpaqlara Livandan olan etnik ermənilərin köçürülməsindən xəbər verilir. Qeyd olunur ki, Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində apardığı qeyri-qanuni məskunlaşma müharibə cinayətidir.

Vurğulanır ki, Azərbaycan da daxil olmaqla dünya ölkələri Livanda baş vermiş faciənin nəticələrinin aradan qaldırılması, Livana humanitar yardım göstərilməsi ilə məşğul olarkən Ermənistan bu faciədən, insanların iztirablarından özünün çirkin məqsədləri naminə sui-istifadə edir. Bununla da Ermənistan onun üçün heç bir mənəvi dəyərlərin olmadığını nümayiş etdirir.

H.Hacıyevin şərhində deyilir ki, işğal olunmuş ərazilərimizdə məskunlaşdırılmış əhali faktiki olaraq Ermənistanın məsuliyyətsiz, avantürist siyasətinin qurbanına çevrilir. "Hamı bilməlidir ki, Azərbaycanın işğal olunmuş ərazilərində həyata keçirilən qeyri-qanuni məskunlaşdırma siyasətinin heç bir hüquqi qüvvəsi yoxdur və Azərbaycan onun nəticələrini tamamilə rədd edir. Ermənistan Suriya və Livandan işğal olunmuş ərazilərə köçürülmüş insanları silahlı muzdlular kimi də istifadə edir", - deyə Azərbaycan Prezidentinin köməkçisinin şərhində bildirilir.

## Ermənistan rəhbərliyi ilhaqçı siyasəti ilə münaqişənin danışıqlar masası arxasında həllinə zərbə vurur



Son günlər sosial şəbəkələrdə təcavüzkar ölkə Ermənistan tərəfindən Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ bölgəsi və ətraf rayonlarında qeyri-qanuni məskunlaşdırma siyasətinin davam etdirildiyini nümayiş etdirən videogörüntülər yayılıb.

Livanın Beyrut şəhərində baş verən partlayışdan sonra bu ölkədəki faciədən öz mənfur məqsədləri üçün istifadə edən işğalçı Ermənistan Livan ermənilərinin Azərbaycanın beynəlxalq səviyyədə tanınmış əraziləri olan, hazırda hərbi işğal altındakı Dağlıq Qarabağ və ətraf bölgələrinə köçürmək planlarını reallaşdırmağa başlayıb. Bu qanunsuz fəaliyyət işğalçı Ermənistan tərəfindən beynəlxalq hüququn norma və prinsiplərinin, o cümlədən 1949-cu il Cenevrə Konvensiyası və onun əlavə protokollarının, eləcə də Ermənistanın özünün üzərinə götürdüyü öhdəliklərinin kobudcasına pozulmasıdır.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin mövzu ilə bağlı açıqlamasında yer alıb.

Açıqlamada, həmçinin deyilir: "Qanunsuz məskunlaşdırma siyasətini həyata keçirən Ermənistanın məqsədi isə aydındır; təcavüzkar ölkə bu yolla işğal etdiyi ərazilərdə həyata keçirilən etnik təmizləmənin nəticələrini, işğala əsaslanan status-kvo vəziyyətini möhkəmləndirməyə çalışır.

Bölgə ilə hər hansı əlaqəsi olmayan etnik erməniləri Azərbaycanın hazırda işğal altında olan torpaqlarına qanunsuz şəkildə köçürməklə burada ermənilərin sayını süni şəkildə artırmağa çalışan təcavüzkar Ermənistan 30 ilə yaxındır ki, insan hüquqları pozulan, Dağlıq Qarabağ və ətraf bölgələrdən zorla didərgin salınan azərbaycanlı məcburi köçkünlərin öz evlərinə, mülklərinə geri qayıtmasına əngəl törədir.

Bölgədə gərginliyi alovlandırmaq məqsədini güdən, son zamanlar öz təxribatçı əməlləri və bəyanatları ilə bunu açıq şəkildə nümayiş etdirən Ermənistan rəhbərliyi həyata keçirdiyi bu ilhaqçı siyasəti ilə münaqişənin danışıqlar masası arxasında həllinə zərbə vurur.

Azərbaycan XİN-i Ermənistan tərəfindən həyata keçirilən qeyri-qanuni məskunlaşdırma siyasəti, konkret olaraq Livandan etnik ermənilərin Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətraf rayonlarına köçürülməsi ilə bağlı ciddi etirazını ATƏT-in Minsk qrupunun həmsədrləri qarşısında və müvafiq beynəlxalq təşkilatlar çərçivəsində qaldırıb. İşğal edilmiş ərazilərimizdə həyata keçirilən qeyri-qanuni fəaliyyət, o cümlədən qanunsuz məskunlaşdırmaya dair beynəlxalq ictimaiyyət mütəmadi məlumatlandırılacaq və bu qanunsuz təcrübəyə son qoyulması istiqamətində beynəlxalq təşkilatlar çərçivəsində səylərimiz davam etdiriləcək.

Azərbaycan ərazilərini işğal altında saxlayan və bu ərazilərdə qeyri-qanuni fəaliyyəti həyata keçirən Ermənistan hökumətinin məsuliyyətə cəlb edilməsi üçün beynəlxalq ictimaiyyəti əməli addımlar atmağa çağırırıq".

# Ermənistanın apardığı qeyri-qanuni məskunlaşma müharibə cinayətidir

Ermənistan son günlərdə livanlı erməniləri işğal etdiyi Azərbaycan ərazilərinə köçürməklə yenidən qeyri-qanuni məskunlaşdırma siyasətinə rəvac verib. Bu hadisə işğalçı dövlətin Azərbaycana qarşı həyata keçirdiyi növbəti hərbi təxribatdır. Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində apardığı qeyri-qanuni məskunlaşmanı müharibə cinayəti adlandırıb.

Məsələ ilə bağlı siyasi ekspertlərin fikirlərini öyrəndik.







### Düşmənin növbəti təxribatı

**Cavid OSMANOV,**
*Milli Məclisin deputatı, YAP Ağdaş rayon təşkilatının sədri:*

- Bu ilin iyul ayında erməni hərbi birləşmələrinin dövlət sərhədinin Tovuz istiqamətində Azərbaycan ərazilərinə basqın etmək cəhdləri Ermənistanın təcavüzkar və işğalçılıq siyasətinin növbəti təsdiqi oldu. Bununla bir daha sübut edildi ki, Yerevan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunmasında maraqlı deyil.

Düzdür, Ermənistan bu hadisələrdə Azərbaycan tərəfindən layiqli cavabını aldı. Ciddi tələfatlar verərək geri çəkilmək məcburiyyətində qalan düşmən bir daha ordumuzun gücünü hiss etdi. Şanlı Aprel döyüşlərindən sonra Tovuzda qazanılan qələbə Azərbaycan Silahlı Qüvvələrinin istənilən an düşmənə sarsıdıcı zərbə vurmağa qadir, hər an torpaqlarımızı azad etməyə hazır olan hərbi güc olduğunu bir daha nümayiş etdirdi.

Həm işğal faktı, həm də iyul ayında sərhəddə baş verənlər Ermənistana qarşı ciddi beynəlxalq təzyiqlərin olunmasına tam əsas yaradır. Lakin işğalçılıq siyasətinin və həyata keçirdiyi təxribatların qarşılığında bu ölkə barədə beynəlxalq ölçünün götürülməməsi ATƏT-in Minsk Qrupunun və bütövlükdə Dağlıq Qarabağ probleminin həllini arzulayan beynəlxalq ictimaiyyətin bu niyyətinin səmimiliyinə şübhə salır. Elə bunun nəticəsidir ki, Ermənistan onilliklərdir ki, işğal olunmuş Azərbaycan ərazilərində qeyri-qanuni fəaliyyət həyata keçirir. Hazırda beynəlxalq nəzarətdən kənar, Ermənistan tərəfindən idarə olunan terrorçu və separatçı rejimin nəzarətində olan Dağlıq Qarabağ silah və narkotik vasitələrin tranzitinə, cinayətkarlıq yuvasına çevrilib.

Ermənistanın işğal olunmuş Azərbaycan ərazilərində həyata keçirdiyi beynəlxalq hüquqa zidd əməllərdən biri də qanunsuz məskunlaşmadır. Ümumiyyətlə, Ermənistan işğal altında saxladığı Dağlıq Qarabağ bölgəsində və ətraf rayonlarda illərdir erməniləşmə siyasəti aparır ki, bunun da əsas istiqamətlərindən biri ermənilərin həmin ərazilərə köçürülməsidir. Məqsəd bu torpaqlarda ermənilərin sayını süni şəkildə artıraraq, ərazilərin etnik-mədəni xüsusiyyətlərinin dəyişdirilməsi və beləliklə də ilhaqçı siyasətin həyata keçirilməsidir. Düzdür, bu siyasət ötən dövr ərzində ciddi bir uğur qazana bilməyib. Çünki on illərdir inkişafdan geri qalan, 90-cı illərin tənəzzülündən heç cür qurtula bilməyən Ermənistanın özündə belə, insanların sürətlə xarici ölkələrə miqrasiya etdiyi bir vaxtda kənardan ermənilərin gətirilib Dağlıq Qarabağda məskunlaşdırılması uğursuz olub.

Ermənistanın bu əməlləri beynəlxalq humanitar hüququn, eləcə də 1949-cu il Cenevrə Konvensiyası və onun əlavə protokollarının kobud şəkildə pozulmasıdır. Hələ bir neçə il əvvəl qanunsuz məskunlaşdırma faktı respublikamızın tələbi ilə işğal olunmuş Dağlıq Qarabağ və ətraf rayonlara səfər edən ATƏT-in faktaraşdırıcı missiyalarının hesabatlarında da öz əksini tapıb. Ondan sonra bu məsələ Azərbaycan tərəfindən dəfələrlə beynəlxalq təşkilatlar çərçivəsində qaldırılıb. Lakin təəssüflə qeyd etməliyik ki, ərazilərimizin işğalına ikili standartlar çərçivəsindən yanaşan beynəlxalq ictimaiyyət, ayrı-ayrı təşkilatlar bu məsələdə də işğalçıya hər hansı formada təzyiq etməkdən uzaq olublar.

Hələ bir neçə il əvvəl Suriyada vətəndaş müharibəsi başlayanda Ermənistan bu ölkədə yaşayan erməniləri Dağlıq Qarabağa köçürməyə cəhd etsə də, proseslər istədiyi kimi getməmişdi. Avqustun 4-də Livanın paytaxtında baş vermiş məlum partlayışdan sonra isə İrəvanın əlinə yeni girəvə düşüb. Məlum olduğu kimi, Beyrutda baş vermiş partlayışdan sonra şəhərdə yaşayan ermənilər də zərər görüblər. Ermənistan Livana humanitar yardım etdiyinin nümayişinə çalışsa da, görünən odur ki, Paşinyan hakimiyyəti Beyrutdakı partlayışdan sonra evsiz-eşiksiz qalan ermənilərdən öz çirkin məqsədləri naminə istifadəyə çalışır.

Livandan ermənilərin köçürülməsini Ermənistan rəhbərliyinin açıqlamaları da təsdiq edir. Hesab edirəm ki, ATƏT, Avropa Şurası kimi təşkilatlar bu məsələyə münasibət bildirməlidirlər. Çünki bu təkcə beynəlxalq hüququn pozulması deyil, həm də hərbi cinayətdir. Ermənistanın bu hərəkəti həm də bu ölkənin tamamilə militarist siyasət yürütdüyünü, Dağlıq Qarabağ münaqişəsinin sülh masası ətrafında həllində maraqlı olmadığını göstərir.

Əlbəttə, Livan erməniləri də çox tezliklə aldadıldıqlarını, Ermənistanın əslində onlardan çirkin məqsədlər naminə istifadə etdiyini anlayacaqlar. Eləcə də bu ölkədəki acınacaqlı sosial-iqtisadi durum onları yenidən Livana qayıtmağa vadar edəcək. Ən əsası isə odur ki, Qarabağa kənardan gətirilib məskunlaşdırılan istənilən erməni daim müharibə qorxusu ilə yaşayacaqdır. Çünki yaxşı bilirlər ki, onların olmayan torpaqlarda əbədi yaşaya bilməzlər və Azərbaycan öz ərazilərini mütləq işğaldan azad edəcək.

### İnsan faciəsindən yalnız terrorçu dövlət yararlana bilər

**Müşfiq MƏMMƏDLİ,**
*Milli Məclisin deputatı:*

- Dağlıq Qarabağ münaqişəsi barədə danışarkən nəzər yetirilməli olan ilk məsələ hansı xalqın bu bölgənin yerli və hansının gəlmə olmasıdır. Azərbaycanlıların Qafqazın yerli xalqı olduğu sübuta ehtiyacı olmayan aksiomdur. Amma ermənilər barədə bunu söyləmək mümkün deyil. Hansısa çarlıqdan, məlikliklərdən bəhs etsələr də, fakt faktlığında qalır ki, bu gün Ermənistan dövlətinin mövcud olduğu torpaqlar tarixi Azərbaycan əraziləridir.

Konkret Dağlıq Qarabağa gəldikdə isə, elə ermənilərin özlərinin 1978-ci ildə Tərtərin Şıxarx qəsəbəsində qoyduqları "Marağa-150" abidəsi onların bura köçüb gəldiklərini sübut edən ən mühüm tarixi faktdır. Bu abidəni ermənilər İran Marağasından Qarabağa köçürülmələrinin 150 illiyi ilə əlaqədar inşa etmişdilər. Ötən əsrin 90-cı illərinin əvvəllərində Ermənistanın torpaqlarımıza iddiaları başlayanda ermənilər bu abidəni dağıtdılar.

İşğalı dövlət siyasətinə çevirən Ermənistanın bu gün də əsas məqsədlərindən biri Dağlıq Qarabağın kənardan gətirilən ermənilər hesabına məskunlaşdırılmasıdır. Atəşkəsin elan olduğu dövrdən indiyədək ermənilər bu istiqamətdə fəal iş aparırlar. İşğal etdikləri Azərbaycan ərazilərində diasporun maliyyəsi hesabına həyata keçirdikləri infrastruktur layihələri də qanunsuz məskunlaşmaya xidmət edir. Bu ilin iyun ayında Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin açılışında bununla bağlı deyib: *"İşğal edilmiş torpaqlarda bu gün ermənilər qanunsuz məskunlaşma siyasəti aparır. Bu məsələ ilə əlaqədar mən artıq bir neçə dəfə öz fikirlərimi bildirmişəm, o cümlədən xüsusilə beynəlxalq tədbirlər çərçivəsində. Avropa İttifaqının sonuncu "Şərq Tərəfdaşlığı" Zirvə görüşü çərçivəsində də bu məsələyə diqqət yetirdim. Biz bütün beynəlxalq təşkilatlarda bu məsələni qaldırırıq və qaldıracağıq. Qanunsuz məskunlaşmaya son qoyulmalıdır. Beynəlxalq ictimaiyyəti buna çağırırıq. Minsk qrupunun həmsədrlərinin bu məsələyə xüsusi diqqət yetirməyini istəyirik ki, bu qanunsuz məskunlaşma dayansın. Çünki Ermənistanın siyasəti bundan ibarətdir"*.

Lakin başqa bir reallıq da ondan ibarətdir ki, erməni lobbisi bu məqsəd üçün külli miqdarda vəsait ayırsa da, niyyətlərini istədikləri kimi reallaşdıra bilməyiblər. Çünki separatçı rejimin yaradıldığı bölgənin ağır sosial-iqtisadi vəziyyəti, üstəlik nəzarətdən kənar qalan bu torpaqların silah və narkotik qaçaqmalçılığı üçün istifadə olunması, bir sözlə, cinayətkarlıq yuvasına çevrilməsi olan-qalan əhalinin də ilk fürsətdə buranı tərk etməsinə səbəb olub. Bu baxımdan nə qədər canfəşanlıq etsələr də, təbliğat aparsalar da, Ermənistanın özü kimi Dağlıq Qarabağ da boşalır. Bunun nəticəsidir ki, Ermənistan indi monoetnik ölkəyə çevrilib. Nəinki azərbaycanlılara qarşı, hətta digər etnik qruplara qarşı burada mənəvi və maddi terror həyata keçirilib.

Avqustun əvvəllərində Livanın paytaxtı Beyrutun dəniz limanında baş verən güclü partlayış isə Ermənistana bu məsələdə yeni fürsət yaradıb. Livana humanitar yardım aparan təyyarələrdə livanlı erməni ailələri Ermənistana gətirilib. Bu, Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi növbəti təxribatçı hərəkətlərindən biridir. Məsələnin maraqlı tərəfi odur ki, düşmən ölkə bu provakativ addımı atarkən indi öz millətindən olan insanlardan istifadə edir. Livan ermənilərinin bir növ alətə çevrilməsi Ermənistanın həm də insan faciəsindən istifadə edən dövlət olduğunu göstərir. İnsan faciəsindən isə yalnız terrorçu dövlət öz maraqları naminə yararlana bilər.

Özü sosial-iqtisadi böhran məngənəsində sıxılan, üstəlik hər min nəfərə düşən koronaviruslu xəstələrin sayına görə Avropada liderlik edən Ermənistan hakimiyyətinin livanlı ermənilərin sosial problemlərinin həlli fikirləri kifayət qədər gülüncdür. Çünki öz vətəndaşlarının kifayət qədər yığılmış problemləri var, işsizlik və yoxsulluq baş alıb gedir və məhz bu səbəblərdən son dövrlərdə yüz minlərlə erməni ölkəni tərk edib.

Bütövlükdə bu məsələ Tovuz hadisələrindən, Goranboydakı uğursuz diversiya əməlindən sonra Ermənistanın növbəti təxribatıdır. Buna rəvac verən isə təbii ki, beynəlxalq təşkilatların məsələ ilə bağlı etinasız və laqeyd münasibətidir. Müharibə gedən ərazilərə mülki insanların köçürülməsi beynəlxalq konvensiyalara əsasən qadağan edilsə də, ATƏT, Avropa Şurası kimi təşkilatların ikili mövqeyi işğalçını öz təxribatçı əməllərini daha da genişləndirməyə təhrik edir.

Ermənistan dərk etməlidir ki, bu qanunsuz fəaliyyət və süni məskunlaşdırma cəhdləri onun gözlədiyi nəticələri verməyəcək. İşğal olunmuş Dağlıq Qarabağ və ətraf ərazilərin azərbaycanlı əhalisi öz evlərinə və mülklərinə geri qayıdacaq və işğalçı Ermənistan bütün qanunsuz əməllərinə görə cavab verəcək. Beynəlxalq təşkilatlar sussalar da, işğalçıya təsir etməsələr də, Azərbaycan tarixi ədaləti, özünün ərazi bütövlüyünü mütləq bərpa edəcək. Prezident İlham Əliyevin dedi kimi, biz heç vaxt işğalla barışmayacağıq.

### İşğalçı ölkənin qeyri-qanuni məskunlaşdırma siyasəti beynəlxalq hüquqa ziddir

**Çingiz QƏNİZADƏ,**
*Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri:*

- Ermənistanda "məxməri inqilab" yolu ilə dövlət çevrilişi baş verəndə həm yerli əhali, həm də beynəlxalq ictimaiyyətdə, nəhayət bu ölkədə də demokratik ab-havanın yaranacağı barədə fikir formalaşdı. Axı, hakimiyyəti ələ keçirmiş Nikol Paşinyan küçə və meydanlarda Ermənistanın müstəqil siyasət yeridəcəyi, heç bir ölkədən asılı olmayacağı, əsgər ölümlərinə son qoyulacağı, münaqişənin ədalətli həlli barədə vədlər verirdi. Ancaq Paşinyanın ölkəyə rəhbərlik etdiyi ilk gündən bəlli oldu ki, onun verdiyi vədlər yalan imiş.

İqtisadi və sosial böhran içərisində çabalayan və hətta öz əhalisinin sadə problemlərini həll edə bilməyən Ermənistanın baş naziri əsas vəzifəsini bir kənara qoyub tez-tez Azərbaycanın işğal altında olan ərazilərinə gedir, separatçı rejimin qarşısında çıxış edərək beynəlxalq hüquqazidd bəyanatlar verir, guya, bu ərazilərin Ermənistana məxsus olması barədə rəy formalaşdırır, bununla da öz hakimiyyətinin ömrünü uzatmağa çalışır. Azərbaycana qarşı işğalçılıq siyasətinin daha da gücləndirilməsi, o cümlədən Tovuz rayonu istiqamətində yeni hücum cəhdi təcavüzkar dövlətin həddini aşdığını bir daha təsdiqlədi.

N.Paşinyanın beynəlxalq hüququn normalarına saymazlığına laqeyd münasibət və özlərini "insan hüquq və azadlıqlarının müdafiəçisi" kimi təqdim edən dövlətlərin və beynəlxalq təşkilatların ikili standartlardan əl çəkə bilməmələri, o cümlədən Ermənistanın ərköyünlüyünə susqunluqları bu ölkənin rəhbərliyinin daha bir özbaşınalığına rəvac verdi. Ermənistan rəhbərliyi yenə də Azərbaycan torpaqlarında süni məskunlaşdırma yolu ilə demoqrafik vəziyyəti dəyişmək istəyir. Beyrutda baş vermiş partlayışdan sonra yaranmış humanitar böhran səbəbindən dünya ictimaiyyətinin Livana dəstəyi fonunda Ermənistan siyasi rəhbərliyi öz köhnə vərdişlərinə sadiq qalaraq həlak olmuş insanların acıları üzərində siyasi oyun quraraq öz işğal siyasətini daha da möhkəmlətməyə çalışır. İşğalçı ölkə bu cür qeyri-qanuni kampaniyaları ilk dəfə deyil həyata keçirir. Beynəlxalq hüquqa əsasən, başqa dövlətin ərazilərini qəsb edən digər dövlətə həmin ərazilərdə məskunlaşdırma aparması qadağandır. Bu narahatlıqlar ATƏT-in missiyaları tərəfindən 2005-ci və 2010-cu illərdə faktların müəyyənləşdirilməsi və yaşayış məntəqələrinin peykdən çəkilmiş şəkilləri ilə də təsdiqlənirdi. Təəssüf ki, həmişə olduğu kimi, bu dəfə də beynəlxalq təşkilatların, o cümlədən faktaraşdırıcı missiyanın sənədləri quru kağız olaraq qaldı.

Bu gün Ermənistan işğal olunmuş Azərbaycan torpaqlarında qeyri-qanuni məskunlaşdırma siyasətini davam etdirməkdədir. Belə ki, Suriya ermənilərindən sonra bu dəfə də Livan ermənilərinin Ermənistana miqrasiyası, oradan isə işğal edilmiş Azərbaycan ərazilərinə köçürülməsi hədəflənir. Artıq təcavüzkar Ermənistan Livandan gətirilən erməni ailələrinin işğal altındakı Dağlıq Qarabağa göndərildiyini açıq şəkildə bəyan edib. ASALA erməni terror təşkilatının tarixən Livan ərazisində formalaşdığını nəzərə alsaq, xüsusi düşərgələrdə təlim keçmiş terrorçuların Azərbaycan ərazilərinə gəlməsi istisna edilmir.

1949-cu il Cenevrə Konvensiyası və ona əlavə protokollara zidd olan və humanitar hüququn pozulması kimi tövsif edilən bu qanunsuz köçürmədə Ermənistanın əsas məqsədi süni məskunlaşdırma yolu ilə erməni əhalisinin heç vaxt yaşamadığı işğal olunmuş ətraf rayonların etnik strukturunu və demoqrafik vəziyyətini öz lehinə dəyişməkdir. Livanda baş vermiş partlayışdan sonra bu ölkədə yaşayan ermənilərin Azərbaycanın işğal edilmiş ərazilərinə köçürülməsi ermənilərin işğalçı, terrorçu mahiyyətini bir daha üzə çıxarır.

Ermənistanın qanunsuz miqrasiyası haqqında beynəlxalq təşkilatlara və ATƏT-in Minsk qrupunun həmsədrlərinə müraciət olunsa da, münaqişənin həllində vasitəçilik missiyası daşıyan bu qurum hələ ki, susur. ATƏT-in Minsk qrupunun bu susqunluğu ona olan inamı heçə endirib. 30 ilə yaxındır ki, işğalçı ölkənin nazı ilə oynayan, dəhşətli terrorlara, vandal aktlarına, sərhədboyu ərazilərdə törədilən təxribatlara, günahsız əhalinin vəhşicəsinə qətlə yetirilməsinə, həmçinin yaşayış məntəqələrinin dağıdılmasına göz yuman bu quruma kim etibar edər? Görünür, ATƏT-in Minsk qrupu əsas vəzifəsini işğalçıya öz yerini göstərmək yox, ona dəstək vermək kimi dərk edir. Çünki Ermənistanın bu qeyri-qanuni hərəkətləri birmənalı şəkildə sülh danışıqlarının ruhuna ziddir. Ona görə də həm beynəlxalq aləm, həm də ATƏT-in Minsk qrupu bu məsələdə susmamalı, işğalçı ölkənin qeyri-qanuni məskunlaşdırma siyasətinin qarşısını qəti şəkildə almalıdır.

***Hazırladı:***
***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# 15 Sentyabr "Bilik Günü"dür

## Təhsilin keyfiyyətinin artırılması yeni nailiyyətlərin qazanılmasına imkan verəcək



Əvvəli 1-ci səh.

İstifadəsi mümkün olmayan sinif otaqlarının cari və ya əsaslı təmiri, günün tələblərinə cavab verən orta məktəb binalarının tikilməsi, bölgələrdə, ən ucqar kəndlərdə belə yaradılan modul tipli məktəblərin, eləcə də ölkə iqtisadiyyatı üçün vacib sahələr üzrə kadrlar hazırlanacaq ali təhsil müəssisələrinin vacibliyi daim gündəmdədir.

Azərbaycanın bütün bölgələrində istər orta məktəblərdə, istərsə də universitetlərdə təhsilin dünya standartlarına uyğun qurulması üçün dövlət səviyyəsində ciddi işlər aparılır. Bu və digər problem xarakterli məsələlər barədə Prezident İlham Əliyev iyulun 27-də Emin Əmrullayevi Təhsil naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən bir daha xatırladaraq demişdir: "Təhsil sahəsində bu günə qədər aparılan islahatlar daha da dərinləşməlidir. Təhsil ölkəmizin ümumi inkişafına uyğun şəkildə inkişaf etməlidir və ən müasir tələblərə cavab verməlidir. Son illərdə bu sahədə çox böyük işlər görülüb, təhsil sahəsi daim diqqət mərkəzindədir və bu da təbiidir. Çünki hər bir ölkənin bu günü və gələcəyi təhsillə bilavasitə bağlıdır".

Bu barədə yeni Təhsil nazirinə tövsiyələrini verən və gözləntilərini bildirən Azərbaycan Prezidenti daha sonra demişdi: "Mən hər il tədris ilinin ərəfəsində yeni tikilmiş və təmir edilmiş məktəblərə baş çəkirəm. Hər il bilik günündə də uşaqlarla, müəllimlərlə görüşürəm və qeyd edirəm ki, məktəb, eyni zamanda, müəllimin iş yeridir. Bu gün bu sahədə görülmüş işlər əlbəttə ki, müəllimləri həvəsləndirir. Ona görə təhsilin səviyyəsinin artırılması istiqamətində əlavə addımlar atılmalıdır. Təbii ki, dünyada gedən müsbət tendensiyalara daim fikir verilməlidir. İnkişaf etmiş ölkələrdə aparılan islahatlar dərindən təhlil edilməlidir və onların bizə uyğun olan hissəsi Azərbaycanda tətbiq olunmalıdır. Bir neçə il bundan əvvəl mənim təşəbbüsümlə Azərbaycan gənclərinin xaricdə təhsil almaları üçün xüsusi proqram qəbul edilmişdir. Bu proqram çərçivəsində minlərlə Azərbaycan gənci dövlət vəsaiti hesabına xarici ölkələrin aparıcı ali məktəblərinə ezam edilmişdir. Onlardan biri də sizsiniz və siz bu proqramla əhatə olunmusunuz. Bildiyiniz kimi, biz bu proqramı Dövlət Neft Fondunun xətti ilə həyata keçirdik. Bu da rəmzi xarakter daşıyır. Biz bu proqramı dövlət büdcəsi hesabına həyata keçirə bilərdik, ancaq mən bunu məhz Dövlət Neft Fondunun xətti ilə keçirilməsinə qərar verəndə qeyd etmək istəyirdim ki, bu, strateji əhəmiyyət daşıyır. Çünki bu günə qədər Dövlət Neft Fondunun xətti ilə həyata keçirilən layihələr strateji əhəmiyyətli layihələrdir. Onların arasında, ilk növbədə, məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması layihələridir. Böyük infrastruktur layihələri və bu proqram məhz bu xətlə icra edilib".

Son illər Azərbaycan Prezidenti tərəfindən ölkəmizin gələcəyi olan gənclərin inkişafına, elm və təhsilin tərəqqisinə xüsusi qayğı göstərilib, bu sahədə mövcud olan problemlərin aradan qaldırılması və respublikamızda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının gerçəkləşdirilməsi məqsədilə əhəmiyyətli tədbirlər həyata keçirilib, bu istiqamətdə fərman və sərəncamlar imzalanıb. Bu fərman və sərəncamlara əsasən, yüzlərlə azərbaycanlı gənc dünyanın müxtəlif ölkələrində ən tanınmış universitetlərdə dövlət hesabına təhsil almağa göndərilib.

Bunlar həm də onu deməyə əsas verir ki, bu gün ölkəmizdə təhsilin bütün pillələrində orta məktəblərdə, kolleclərdə, peşə təhsilində, ali təhsil sahəsində, ali təhsildən sonrakı təhsil, əlavə təhsil sahəsində yeni layihələrin reallaşdırılması istiqamətində mühüm addımlar atılır. Təhsildə infrastrukturun yenilənməsi, maddi-texniki bazanın möhkəmləndirilməsi, ümumtəhsil məktəblərinin kadr potensialının və tədrisin keyfiyyətinin yüksəldilməsi xüsusilə diqqət mərkəzindədir.

Görünən odur ki, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın qəbulundan sonrakı illər ərzində ölkəmizdə təhsil sahəsində müsbət dinamika müşahidə olunur. Bu istiqamətdə aparılan məqsədyönlü işlər ardıcıl xarakter daşıyır. Təsadüfi deyil ki, son 17 il ərzində 3500-dən çox məktəb binası tikilib və ya əsaslı təmir olunub, bunun da nəticəsində 1 milyondan çox şagirdin təlim-tədris şəraiti əhəmiyyətli dərəcədə yaxşılaşıb. Ümumiyyətlə, son 17 ildə məktəb tikintisinə dair bir neçə dövlət proqramı qəbul edilib, eyni zamanda, digər sahələri əhatə edən proqramlarda da məktəb tikintisinə böyük diqqət yetirilir.

Təhsil infrastrukturunun yenilənməsi istiqamətində Azərbaycanın Birinci vitse-prezidenti, UNESKO-nun və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun həyata keçirdiyi işlər xüsusi qeyd edilməlidir. Fondun dəstəyi ilə xeli sayda məktəblərin maddi-texniki bazası yaxşılaşdırılıb, təhsilin keyfiyyətinin yüksəldilməsi kimi məsələlərə nail olunub.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən təhsil siyasətinin çox mühüm strateji hədəflərindən biri qara qızılın intellektual kapitala çevrilməsidir. Bu istiqamətdə reallaşdırılan tədbirlər sırasında müasir çağırışlara cavab verən, yüksək keyfiyyətli tədris prosesinin həyata keçirilməsi mühüm yer tutur. Məzunların qəbul imtahanlarında müvəffəqiyyətli iştirakı da bu baxımdan əhəmiyyətlidir. Pandemiya dövründə ölkəmizdə yaranan çətin vəziyyətə baxmayaraq, təhsil sistemi öz işini uğurla davam etdirib, şagirdlər öz səyləri, bilikləri sayəsində lazımi bal toplayaraq arzusunda olduqları ixtisasa yiyələnmək üçün tələbə adını qazanıblar.

Ölkəmizdə təhsilin keyfiyyətinin artırılması, dövlət vəsaitinin, təhsilə ayrılan investisiyanın səmərəli istifadə olunması qısa zamanda daha böyük nailiyyətlərin əldə olunmasına imkan verəcək.

**Rəhman SALMANLI,**
**"Azərbaycan"**

## İnkişafa yol açan fəaliyyət

### Heydər Əliyev Fondunun ölkədə aparılan təhsil islahatlarına misilsiz töhfələri var

Əvvəli 1-ci səh.

Birinci xanımın xeyirxah əməlləri işığında artıq bütöv bir nəsil yetişir. Xüsusilə gənclərdə vətənpərvərlik ruhu güclənir. Heydər Əliyev Fondunun yarandığı gündən aparıcı bir fəaliyyət sahəsi mövcuddur: bu, təhsil və geniş mənada sosial tərbiyə məsələləridir. Həmin məsələlər, əslində, xalqımızın gələcəyini qurmağın mühüm yollarıdır. "Bu gün hər bir dövlətin, hər bir cəmiyyətin bundan önəmli hədəfi yoxdur", deyir Mehriban xanım. İndi xeyriyyəçilik fəaliyyəti, hansısa yaxşılıqlara vəsilə olmaq arzusu gənclər arasında geniş yayılır. Xoş əməllər ortaya qoymaq, başqalarına kömək göstərmək, cəmiyyət üçün faydalı işlər görmək istəyi getdikcə daha çox gəncimizin həyat tərzinə çevrilir. Onlar sosiallaşırlar, nəcib niyyətlər ətrafında bir araya gəlmələri ilə müsbət nəticələr yaradırlar.

Bu, çox sevindiricidir. Deməli, Mehriban xanımın illərdən bəri fədakarlıqla gördüyü işlər öz məqsədlərinə çatır. Cəmiyyətimizin gələcəyi bu dəyərlər ruhunda formalaşır. Heydər Əliyev Fondu Ulu Öndərin təməlini qoyduğu və Azərbaycan Prezidentinin əzmlə davam etdirdiyi təhsil islahatlarına miqyası görünməyən töhfələr verir. İlk növbədə təhsilin maddi-texniki bazasının inkişaf etdirilməsi, onun keyfiyyətinin yüksəldilməsi, dünya təhsili ilə əlaqələrinin yaradılması prosesinə daim diqqət yetirir. Ümumiyyətlə, fondun milli maarifçilik xəttinin həyata keçirilməsi sahəsində gördüyü işlər konkret çərçivə ilə məhdudlaşmır - məktəb tikintisindən tutmuş UNESKO və ICESCO ilə konkret təhsil proqramlarının həyata keçirilməsinədək geniş spektri əhatə edir. Qısa müddət ərzində uğurla gerçəkləşdirilən bu layihələr cəmiyyətdə geniş rezonansa səbəb olmuş, böyük rəğbət və etimadla qarşılanmışdır.





Mehriban xanım Əliyevanın fəaliyyətinin ali məqsədlərindən biri ölkəmizin təhsil sisteminin qabaqcıl dünya standartları səviyyəsinə yüksəldilməsidir. Fond fəaliyyətində bu məqsədə doğru ardıcıl addımlar atır, ölkəmizin bu günü və gələcəyi üçün böyük mənəvi dəyərlər yaradır.

### Cəmiyyətdə böyük əks-səda doğuran layihə

İnkişaf dəyişiklikdir. Mütərəqqi ənənələr üzərində yeni dəyərlərin yaradılmasıdır. Həyatımızdakı ən böyük dəyişikliklər isə məhz təhsillə, məktəblə başlanır. Heydər Əliyev Fondu 2005-ci ildə "Yeniləşən Azərbaycana yeni məktəb" çağırışını irəli sürməklə cəmiyyət həyatında böyük bir dəyişikliyin əsasını qoydu. Mehriban xanım Əliyevanın bu təşəbbüsü çox böyük ictimai dəstək qazandı. Təhsilə insanlarımızın marağını artırdı. "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsinin məqsədi təhsil sahəsindəki mövcud problemlərin həllinə kömək göstərmək, ölkə miqyasında müasir standartlara cavab verən təhsil kompleksləri yaratmaq, tədrisin səviyyəsinə bilavasitə təsir edən problemləri aradan qaldırmaq, cəmiyyətin müxtəlif təbəqələrinin, yerli və xarici şirkətlərin, beynəlxalq təşkilatların bu sahədə birgə əməkdaşlıq imkanlarını müəyyənləşdirərək ümumi işin xeyrinə yönəltməkdir.

Proqram çərçivəsində ölkənin müxtəlif bölgələrində yüzlərlə məktəb binası inşa olundu və yenidən quruldu. Bu məktəblərin hər birində müasir laboratoriya, kitabxana, yeməkxana, ən son avadanlıqla təchiz edilmiş kompüter otaqları, emalatxana, idman zalları, geniş meydançalar və ayrıca istilik sistemi yaradıldı. Bununla tam fərqli, müasir, müsbət dəyişikliklərlə zəngin təhsil mühitinin qapıları gənc nəslin üzünə açıldı.

Heydər Əliyev Fondu "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsinin uğurları ilə göstərdi ki, təhsil kimi strateji, cəmiyyət üçün həyati vacib sahələrdəki mövcud problemlərin yoluna qoyulmasını yalnız dövlətdən ummaq düzgün deyil. Bu sahədə inkişafa hər kəs bacardığı dəstəyi göstərməlidir. Çünki təhsil adına görülən hər kiçicik bir işin nəticəsi müəyyən müddətdən sonra çox böyük faydalarla geri dönür.

"Yeniləşən Azərbaycana yeni məktəb" layihəsinin xoş bəhrələrini artıq gündəlik həyatımızda hiss etməkdəyik. Bu layihə çərçivəsində tikilmiş, yenidən qurulmuş məktəblərdə vaxtilə birinci siniflərə gedənlər artıq məzun olmaq ərəfəsindədirlər. Təhsilini müəyyən siniflərdən sonra məhz həmin yenilənmiş məktəblərdə davam etdirmiş gənclərimizin bir qismi isə artıq ali məktəbləri də başa vurublar. Onlar bu məktəblərlə dövlətimizin diqqət və qayğısını, gücünü, ali məqsədlərini görüb hiss ediblər. Layihə yenə də davam etdirilir. Mərkəzi şəhərlərimizdə və ucqarlarda inşa edilən, yaxud yenidən qurulan təhsil ocaqları ilə maarif nurunu insanlara yetirir.

Qala qəsəbəsindəki 216, Gəncə şəhərindəki 34, 18 nömrəli, Salyanda Ərəbqardaşbəyli kənd, Şamaxıda Məlikçobanlı kənd, Ağsu rayonunda Bico kənd, Şamaxı rayonunda Meysəri kənd tam orta məktəblərinin binaları və başqaları son dövrlər bu layihə çərçivəsində uğurla yerinə yetirilmiş işlərdir.

Bu günlərdə isə "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində Yasamal rayonunda Vaqif Mustafazadə adına 2 nömrəli Uşaq İncəsənət Məktəbi istifadəyə verildi. Görkəmli musiqiçi-bəstəkarın adını daşıyan bu məktəbdə yaradılmış şərait və bütün bu işlərin pandemiya dövründə həyata keçirilməsi bir daha göstərdi ki, dövlətimizin əzmkarlığı, elmə, təhsilə, sənətə qayğısı qarşıya çıxan bütün maneələrdən daha güclüdür. Heç bir çətinlik bizi tutduğumuz inkişaf yolundan çəkindirə bilməz.

### Təhsilə dəstək

Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondunun təhsil sahəsində reallaşdırdığı möhtəşəm layihələrdən biri də "Təhsilə dəstək"dir. Bu layihə Ermənistanın Azərbaycana təcavüzü nəticəsində daimi yaşayış yerlərini tərk etmiş qaçqın, məcburi köçkün ailələrindən olan birinci sinif şagirdlərinə fond tərəfindən çanta və məktəb ləvazimatı hədiyyə edilməsi ilə başlandı və hər il xeyirxah bir ənənəyə çevrildi. Qısa zamandan sonra "Təhsilə dəstək" hüdudlarını daha da genişləndirdi. Layihə çərçivəsində Gürcüstanın azərbaycanlılar yaşayan bölgələrindəki təhsil ocaqlarına, həmçinin Azərbaycanın Qax, Zaqatala və Balakən rayonlarında tədrisin gürcü dilində aparıldığı məktəblərə mütəmadi olaraq yeni dərslik və tədris ləvazimatları göndərilir. Bir sıra xarici təşkilat və şirkətlərin ("World Vision", "JP Morgan", "Exxon Mobil", Rusiyanın "Puşkin kitabxanası" Fondu) fonda hədiyyə etdikləri müxtəlif adda çoxsaylı nəşrləri ölkənin ali və ümumtəhsil məktəblərinə, uşaq evləri və internatların kitabxanalarına paylanmağa başlandı.

"Təhsilə dəstək" layihəsi çərçivəsində indiyə qədər Gürcüstan, Misir, Rumıniya, Rusiya Federasiyası, Pakistan, Hollandiya, Vyetnamda bir sıra məktəblər yenidən qurulub və əsaslı təmir olunub. Pakistanın Müzəffərabad şəhərinin Rara ərazisində zəlzələdən sonra dağılmış orta məktəb binasının inşası bu baxımdan Heydər Əliyev Fondunun ən uğurlu və rəğbət doğuran layihələrindən biridir. Yada salaq ki, həmin məktəb qızlar üçündür. Bu da bütün dünyada qızların təhsilinin, ictimai fəallığının, iqtisadi müstəqilliyinin təmin olunmasının Heydər Əliyev Fondu üçün nə qədər böyük önəm kəsb etdiyini göstərir.

Fondun təşəbbüsü ilə Gürcüstanın Dmanisi rayonunda yeni kompüter tədris mərkəzinin binası inşa edilərək istifadəyə verilib. Eyni şəkildə Marneuli şəhərindəki 7 nömrəli Azərbaycan ümumtəhsil məktəbi, Tiflisdəki M.F.Axundzadə adına 73 nömrəli orta məktəb, Qardabanidəki 3 nömrəli Azərbaycan məktəbi və Dmanisidəki 2 nömrəli Azərbaycan beynəlxalq orta məktəbi əsaslı təmir olunub. Həmçinin Bolnisi rayonunun Həsən Xocalı və Cəfərli kəndlərində yeni məktəb binaları inşa edilib.

### Uşaq evləri və internat məktəblərinin inkişafı

Fondun təhsil sferasında illərdən bəridir ki, reallaşdırdığı layihələrdən biri də "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı"dır. Azərbaycanda kimsəsiz uşaqlar üçün nəzərdə tutulmuş müəssisələrə sığınan körpələrin problemlərinin həlli hər zaman qurumun qarşıya qoyduğu əsas vəzifələrdən olmuşdur. Bu proqram bilavasitə fondun prezidentinin təşəbbüsü ilə hazırlanmış, mövcud problemlər öyrənilmiş, onların aradan qaldırılması üçün konkret işlər görülmüşdür. Layihə çərçivəsində görülən tədbirlər də Mehriban xanım Əliyevanın təşkilatçılığı, daimi nəzarəti ilə həyata keçirilməkdədir. Proqramı uğurlu edən onun ciddi bir təhlil əsasında hazırlanması və icrası gedişində hər bir sahənin dəqiqliklə nəzərə alınmasıdır. Bakıda, ətraf qəsəbələrdə yerləşən uşaq evlərində və internat məktəblərdə mövcud problemlər öyrənilmiş, onların aradan qaldırılması üçün konkret işlər görülmüşdür.

"Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" çərçivəsində respublika üzrə 40-dan çox uşaq müəssisəsi əsaslı şəkildə təmir edilmiş, yeni avadanlıqlarla təchiz olunmuş, əlavə yardımçı binalar tikilmiş, kommunal şərait yaxşılaşdırılmışdır. Müəssisələrdə kitabxanalar yaradılmışdır. Onlar müvafiq tədris vəsaiti və bədii ədəbiyyatla təmin olunmuşdur. Əksər uşaq evləri və internat məktəblərində kompüter avadanlığı quraşdırılmışdır. Sinif otaqları interaktiv təhsil üçün uyğunlaşdırılmışdır. Uşaqların hərtərəfli inkişafına müvafiq şəraitin yaradılması məqsədilə müəssisələrdə mütəmadi olaraq treninqlər davam etdirilməkdədir.

2009-cu ildən başlayaraq Mehriban xanım Əliyevanın təşəbbüsü əsasında bu müəssisələrlə bağlı daha bir xeyirxah iş həyata keçirilir. Uşaq evlərində tərbiyə almış, yaşı 18-ə çatandan sonra isə müstəqil həyata atılan gənclər üçün Bakıda və bölgələrdə yaşayış binaları tikilir. Onlar mənzillərlə, öz peşə bacarıqlarına uyğun iş yerləri ilə təmin olunurlar.

### Məktəbəqədər təhsil müəssisələrinin inkişafı

Heydər Əliyev Fondunun uğurla reallaşdırdığı işlərdən biri də "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" layihəsidir. Layihə çərçivəsində Bakıda və ucqarlarda 100-ə yaxın məktəbəqədər təhsil müəssisələri inşa edilmiş, yaxud yenidən qurularaq körpələrin istifadəsinə verilmişdir. Bu proses indi də davam etdirilməkdədir.

Son bir neçə ayda Gəncə şəhərində istifadəyə verilmiş 32 saylı, Binəqədi rayonundakı 141, Sabunçu rayonundakı 260, Yasamal rayonundakı 11 saylı körpələr evi-uşaq bağçası, Bakıda yenidən qurulmuş "Ümid yeri" uşaq sığınacağı, İmişlidə, Şamaxı şəhərində və Şamaxının Meysəri kəndində yaradılmış körpələr evi-uşaq bağçaları bu proqramın böyük uğurla icra olunduğunu göstərir.

Təhsil sahəsində beynəlxalq əməkdaşlıq istiqamətində də çoxsaylı tədbirlər həyata keçirilir. UNESKO-nun diqqətinin ölkənin təhsil problemlərinə cəlb olunması nəticəsində təşkilatlarla münasibətlər daha da dərinləşmiş, bir neçə istiqamətdə əməkdaşlıq əlaqələri qurulmuşdur. Bu əlaqələr əsasən "Təhsil hamı üçün" proqramını, texniki peşə sahəsində əməkdaşlıq, inklüziv təhsil layihəsi, ali məktəblərdə UNESKO kafedralarının yaradılması və digər sahələri əhatə etmişdir.

* * *

Dünyada bir insanın təhsilinə verilən dəstək ümumən bəşəriyyətin rifahına xidmətdir. Cəhalətə qarşı mübarizədə böyük qələbədir. Mehriban xanım Əliyevanın Heydər Əliyev Fondunun xətti ilə həyata keçirdiyi təhsil layihələri də maarif işığını bütün dünyada yayır. Cəhalətin, biliksizliyin və bunun gətirdiyi saysız-hesabsız problemlərin, sıxıntıların miqyasını kiçildir.

Heydər Əliyev Fondunun bu layihələri həm də dünyaya yeni bir Azərbaycan təqdim edir. Ölkəmizi dünyaya elm, təhsil, mədəniyyət işığında tanıdır. Bizə rəğbət bəsləyənlərin, bizimlə həmrəy olanların sırasını genişləndirir.

Bu, Ulu Öndər Heydər Əliyevin arzularında yaşatdığı Azərbaycandır. Bu, Prezident İlham Əliyevin tarixin ən qüdrətli çağlarına yetirdiyi Azərbaycandır. Bu, Mehriban xanım Əliyevanın öz xeyirxah əməlləri ilə hər birimizə daha da doğmalaşdırdığı Vətəndir.

Və bu Vətənə xidmət qürurumuz, şərəfimizdir!

**İradə ƏLİYEVA,**
**"Azərbaycan"**

## Göstərilən dövlət qayğısı Goranboy təhsilində uğurları ildən-ilə artırır

Müasir dövrdə rəqabətə tab gətirmək üçün, ilk növbədə, təhsilə, zəngin biliklərə, informasiya texnologiyalarına xüsusi diqqət vermək lazımdır. Elm və texnologiya əsri kimi xarakterizə olunan XXI əsr elmin inkişafını daha da zəruri edir. Çünki intellektual potensial əhəmiyyətinə görə bu gün hətta təbii sərvətləri də üstələyir.

Sürətlə inkişaf edən, beynəlxalq aləmin etibarlı üzvünə çevrilən Azərbaycan üçün də təhsil ən prioritet məsələlərdəndir. Ölkəmiz müstəqillik qazandıqdan sonra digər sahələr kimi təhsildə də bir sıra problemlərlə qarşılaşdı. Lakin Ulu Öndər Heydər Əliyev ikinci dəfə siyasi hakimiyyətə gəldikdən sonra ilk diqqət yetirdiyi sahələrdən biri təhsil oldu. Bu vacib sahənin inkişafını təmin etmək məqsədilə bir neçə qərar qəbul edildi. Nəticədə az bir vaxt içərisində Azərbaycan təhsilində müsbət irəliləyişlərə nail olundu. İlk növbədə sovetlər dövründən qalmış köhnə məktəb binalarının yenilənməsinə başlandı və bu iş Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Sevindirici haldır ki, indi ölkəmizin ən ucqar kəndlərində də yeni məktəb binaları inşa edilərək istifadəyə verilir. Bunu Goranboy rayonunun timsalında da aydın görmək olar. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın diqqət və qayğısı, həmçinin Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində bu rayonda da bir neçə məktəb binası tikilmişdir.



Hazırda fondun maliyyə dəstəyi ilə Goranboy şəhər 1 nömrəli tam orta məktəbin inşası sürətlə davam etdirilir. Məktəb 700 şagird yerlikdir və burada layihəyə uyğun olaraq ən müasir laboratoriyalar, idman zalı və meydançası, mərkəzləşdirilmiş istilik sistemi, eləcə də rahat və işıqlı sinif otaqları yaradılır.

Məktəb binalarının yenilənməsi Goranboy şəhəri ilə yanaşı, rayonun kənd və qəsəbələrində də uğurla aparılır. Hazırda dövlət başçısının müvafiq sərəncamı ilə ayrılmış vəsait hesabına 920 yerlik Dəliməmmədli şəhər tam orta məktəbinin yenilənməsinə başlanmışdır. 80 şagird yerlik Abbasqulular kənd ümumi orta və 56 şagird yerlik Gürzalılar kənd tam orta məktəbi üçün modul tipli məktəblərin inşası sürətlə davam etdirilir. Həmin məktəblərin vaxtında istifadəyə verilməsinə ciddi nəzarət edilir. Elə yeni dərs ilinin başlanması münasibətilə və inşası davam etdirilən təhsil müəssisələrində görülən işlərlə tanış olmaq məqsədilə rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev aidiyyəti təşkilatların rəhbərləri ilə birlikdə həmin obyektlərdə olmuş və lazımi məsləhətlər vermişdir.

Qeyd edək ki, Goranboy rayonunda təhsilin inkişafına göstərilən dövlət qayğısı hər il öz bəhrəsini verir. Əvvəlki illərdə olduğu kimi, cari ildə də məktəbi bitirən məzunlar test imtahanlarında uğurlu göstəricilərə nail olmuşlar. Belə ki, ali məktəblərə qəbul imtahanlarında iştirak edən gənclərdən 16 nəfəri 600-dən, 45 nəfəri 500-dən yuxarı bal toplamışdır. Ən yüksək nəticəni isə 667 balla Qaradağlı kənd tam orta məktəbinin məzunu Aytən Cəfərova göstərmişdir. Ümumiyyətlə, cari tədris ilində rayon üzrə 11-ci sinfi bitirən 813 məzundan 556-sı ali məktəblərə sənəd vermiş və onların 30 faizdən çoxu tələbə adını qazanmışdır.

**Sabir ƏLİYEV,**
**"Azərbaycan"**

## Qəzalı vəziyyətdə olan məktəb əsaslı təmirdən sonra istifadəyə verildi

Ağstafa rayonunun Muğanlı kəndində uzun illərdir qəzalı vəziyyətdə olan məktəb binası əsaslı təmirdən sonra istifadəyə verilib. 624 şagird yerlik təhsil ocağı müasir avadanlıqlarla təmin olunmuşdur ki, bu da keyfiyyətli tədris üçün zəmin yaradacaqdır.

Qeyd edək ki, 1982-ci ildə inşa edilən məktəb binasının qəzalı vəziyyətdə olması tədrisə də mənfi təsir göstərirdi. Prezident İlham Əliyevin sərəncamı ilə keçən ildən başlanan təmir işləri bu günlərdə başa çatdırılmışdır. Şəhid Füzuli Kərimovun adını daşıyan kənd tam orta məktəbində hələlik 359 nəfər şagird təhsil alacaq, 20 nəfər isə məktəbəhazırlıq qrupuna gedəcəkdir. Yeni məktəbdə şagirdlərin təlim-tərbiyəsi ilə 49 müəllim məşğul olacaqdır.

Təhsil müəssisəsində müasir sinif otaqları, fizika-kimya laboratoriyaları, biologiya, texnologiya kabineti, bundan başqa, idman zalı yenidən qurulub. Akt zalı müasir formada



rekonstruksiya edilərək, 180 yerlik oturacaqla təmin olunub. 100 şagird yerlik bufet üçün yeni avadanlıqlar alınıb, 16 yerlik oxucu yerinə malik müasir kitabxana yaradılıb. Məktəblilər üçün futbol, voleybol, basketbol stadionları inşa edilib. Müasir qazanxana qazla təchiz olunub. Məktəbdə müşahidə kameraları da quraşdırılıb.

**S.ƏLİYEV,**
**"Azərbaycan"**

# Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu Albert Lixanova “Dostluq” ordenini təqdim edib



Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu Beynəlxalq Uşaq Fondları Assosiasiyasının prezidenti, Rusiya Uşaq Fondunun sədri, yazıçı Albert Lixanova “Dostluq” ordenini təqdim edib.

Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında humanitar əlaqələrin möhkəmləndirilməsində xidmətlərinə görə Albert Lixanov “Dostluq” ordeni ilə təltif edilib.

AZƏRTAC xəbər verir ki, səfir Polad Bülbüloğlu yazıçını 85 illik yubileyi münasibətilə təbrik edərək Azərbaycan dövlətinin başçısının təbrik məktubunu oxuyub. Məktubda qeyd edildiyi kimi, artıq otuz ildən çoxdur ki, Rusiya Uşaq Fondu A.Lixanovun rəhbərliyi ilə ailə institutunun və ailə dəyərlərinin möhkəmləndirilməsinə, uşaq hüquqlarının müdafiəsinə, çətin vəziyyətə düşmüş uşaqların dəstəklənməsinə yönəlmiş mühüm iş aparır.

Məktubda deyilir: “Azərbaycan xalqının görkəmli oğlu Heydər Əlirza oğlu Əliyevin əziz xatirəsinə, binəsib uşaqların müdafiəsi kimi nəcib işə onun sanballı töhfəsinə, onunla birgə apardığınız, Sovet Uşaq Fondunun yaradılması ilə nəticələnmiş işə Sizin qayğıkeş münasibətinizi Azərbaycanda yüksək qiymətləndirirlər”.

Sonra səfir P.Bülbüloğlu akademik A.Lixanovun “Dostluq” ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamını oxuyub və ordeni ona təqdim edib.

A.Lixanov AZƏRTAC-ın müxbiri ilə söhbətində Ümummilli Lider Heydər Əliyev barədə xatirələrini bölüşüb: “Bizi Heydər Əliyev ilə çoxillik dostluq telləri bağlayırdı. 1984-cü ildə mənim Sovet İttifaqında valideynlərini itirmiş uşaqların vəziyyəti barədə məktubum dəstəkləndi. Bu məsələ ilə Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev məşğul olurdu. Biz onunla görüşdük, SSRİ-də valideynlərini itirmiş uşaqların vəziyyəti barədə xeyli danışdıq, yeni sənəd hazırladıq. 1985-ci ildə çox mühüm qərar qəbul edildi və indiyədək bu qərar qüvvədədir. Sənəddə valideynlərini itirmiş uşaqlara yeni münasibət müəyyən edilmişdi. O dövrdə belə uşaqların sayı bir milyonu keçirdi”.

Albert Lixanov qeyd edib ki, Heydər Əliyev ilə onun dostluğu Ümummilli Lider Azərbaycana qayıtdıqdan sonra da uzun illər davam edib. O deyib: “Mən ideyalarıma xoş münasibət göstərdiyinə görə daim ona minnətdar olmuşam. Bu, bütün Sovet İttifaqındakı uşaqlara əsl dövlət münasibəti idi. Qərar qəbul olundu, iş yerinə yetirildi. Mən onun xatirəsi qarşısında baş əyirəm, ruhu şad olsun”.

# Müstəqil ölkənin azad paytaxtı - Bakı

1918-ci ilin 28 mayında qədim və gözəl məmləkətimiz müstəqilliyinə nail oldu. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması yalnız illərdir bu yolda mücadilələr edənlərin, mübarizələr aparanların qələbəsi deyildi. Heç bütövlükdə o misilsiz dönəmə, o böyük günə şahidlik edənlərin də səadətə qovuşduğu gün sayılmamalıdır. 1918-ci ilin 28 mayı zaman-zaman bu ölkədə yaşayıb onu canından çox sevərək azad görmək istəyənlərin ruhlarının rahatlıq tapdığı gündü. Azərbaycan Xalq Cümhuriyyətinin bərqərar olması həm də o günü görməyib, haqqında tarix kitablarının səhifəsindən, arxivlərdən məlumat alanların əbədi qüruruna, fəxarətinə çevrilib.

## Bakının intizarı...

Çarizimin süqutundan sonra Azərbaycan da öz müqəddəratını həll etmişdi. Azərbaycan Xalq Cümhuriyyəti elan olundu. Ancaq müstəqil dövlətin qayğılarının sayı-hesabı yox idi. Bütün sahələrdə təxirəsalınmaz işlər, mühüm vəzifələr, həlli labüd problemlər vardı. Hökumətin hərbi sahədə görəcəyi vacib işlər isə həyati əhəmiyyət daşıyırdı. Azadlığına göz dikmiş düşmənləri həm çox, həm də amansız idi. O çətin günlərdə Azərbaycanın hərb elminə dərindən yiyələnən, müasir silahlarla rəftar etməyi bacaran hərbçilərin sayı olduqca azdı. Buna görə çar Rusiyası uzun illər siyasət işlətmiş, azərbaycanlıları əsgəri xidmətə cəlb etməmişdi.

Cümhuriyyət hökuməti ilk gündən silahlı qüvvələrin təşkilinə başladı. 1918-ci il mayın 28-də qəbul edilmiş “İstiqlal bəyannaməsi”ndə qeyd edilirdi ki, Azərbaycan özünü xarici müdaxilələrdən müdafiə etmək, daxili düşmən qüvvələrini zərərsizləşdirmək üçün nizami orduya malik olmalı, özünün silahlı qüvvələrini yaratmalıdır. Hökumət tərəfindən 25 min nəfərlik ordu yaratmaq vəzifəsi irəli sürüldü. Dövlət büdcəsinin 24 faizi hərbi məqsədlərə ayrıldı. Yaradılacaq ordunun əsasını Müsəlman korpusu təşkil edirdi.

Tiflisdə Azərbaycan Milli Şurası tərəfindən təsdiq olunan ilk Hökumət kabinəsində Hərbi Nazirlik də nəzərdə tutulurdu. Hərbi nazir vəzifəsinə isə “İstiqlal bəyannaməsi”ni imzalayan 26 nəfərdən biri - Xosrov Paşa bəy Sultanov təyin edildi.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə 1918-ci il 26 iyunda Müsəlman korpusunun adı dəyişdirilərək Əlahiddə Azərbaycan korpusu adlandırıldı. Onun komandiri vəzifəsini general-leytenant Əliağa Şıxlınski davam etdirdi. Əlahiddə Azərbaycan



Korpusu milli silahlı qüvvələrin yaradılması istiqamətində mühüm işlərə başladı.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti elan olunanda Bakı şəhəri Stepan Şaumyanın rəhbərlik etdiyi Bakı Xalq Komissarları Sovetinin bolşevik-erməni silahlı qüvvələrinin işğalındaydı. Bu səbəbdən milli hökumət müvəqqəti olaraq Gəncədə yerləşdi. Yeni hökumətin başlıca vəzifəsi Bakını işğaldan azad etmək idi. Ancaq qarşıda Bakı Sovetinin 18 minlik qoşunu vardı...

Hələ cümhuriyyətin qurulması ərəfəsində İstanbula gedən Azərbaycan təmsilçiləri Osmanlı dövlətindən köməklik istəmişdilər. Vəziyyəti nəzərə alan hərbi nazir Ənvər Paşa qardaşı Nuru Paşaya rəhbər olduğu hərbi hissələrlə Təbriz istiqamətindən Gəncəyə doğru hərəkət etmək əmri verdi.

1918-ci il iyunun 4-də müstəqil Azərbaycan hökuməti ilə Osmanlı dövləti arasında “Qarşılıqlı yardım və dostluq haqqında” müqavilə imzalandı. Müqaviləyə əsasən, Osmanlı hökuməti Azərbaycana hərbi yardım göstərməyi öhdəsinə götürdü.

İyunun 10-da Bakı Sovetinin bolşevik-daşnak ordusu Azərbaycanın müstəqilliyinə son qoymaq üçün Gəncə istiqamətində hücuma keçdi. Müsəlman əhaliyə qarşı soyqırım aparır, evlərini talan edirdilər. Vəziyyətin ağırlığını nəzərə alan cümhuriyyət hökuməti iyunun 23-də ölkədə hərbi vəziyyət elan etdi. İyunun 27-dən iyulun 1-dək Göyçay ətrafında ağır döyüşlər aparıldı. Bakı Sovetinin qoşunlarının Gəncəyə yürüşünün qarşısı alındı. Göyçay, Kürdəmir, Ağsu, Şamaxı daşnak-bolşevik işğalından azad edildi. Hələ ki, Bakı intizarla yol gözləyirdi...

## Qələbə!

Bakı Xalq Komissarları Soveti 1918-ci il iyulun 31-də istefa etmək məcburiyyətində qaldı. Eser-menşeviklər və daşnaklar bundan istifadə edərək avqustun 1-də Bakıda Sentrokaspi Diktaturası adlanan idarəetmə orqanı qurdular. Bu orqan ilk gündən bolşeviklərə divan tutmaq və Cənubi Azərbaycanda olan ingilis qoşununu Bakıya dəvət etmək mövqeyində dayandı. Avqustun 4-də 300 zabit və əsgərdən ibarət ilk ingilis dəstəsi Bakıya gəldi.

1918-ci il avqustun 5-də Qafqaz İslam Ordusu Əlahiddə Azərbaycan korpusu ilə birgə Qurd qapısı istiqamətindən hücuma keçdi. Bakı şəhərinin işğaldan azad edilməsi üçün ilk cəhd uğursuz oldu.

Avqustun 17-də Britaniya ordusunun generalı Lionel Denstervilin Bakıya qoşun çıxardı. O, Bakı neftinə sahib olmaq və Qafqaz İslam ordusunu şəhərə buraxmamaq tapşırığı almışdı. Denstervilin Bakıdakı hərbçilərinin sayı təqribən 1000 əsgər və zabitdən ibarət idi.

Həmin vaxtlar bolşeviklərə qarşı olan və çar Rusiyasının İran ərazisində hərbi əməliyyat aparan kazak dəstəsinin komandanı polkovnik Lazar Biçeraxovun qoşunu da bu şəhərdə idi. Biçeraxova tabe qüvvələr Bakının şimalındakı Biləcəri stansiyasında müdafiə mövqeyindəydi. Biçeraxov general Denstervillə gizli razılığa gələrək, türk qoşunlarına qarşı birgə əməliyyat aparmağa hazır olduğunu bildirdi. Qafqaz İslam ordusuna məğlub olacağını görən Biçeraxov iyulun 30-da dəstəsini cəbhə xəttindən çıxarıb Port-Petrovsk istiqamətində şimala çəkməli oldu.

Sentyabrın 14-nə keçən gecə Qafqaz İslam Ordusu Bakının azad edilməsi üçün yenidən hücuma başladı. Həmin günün axşamı Denstervilin qoşunu gəmilərlə Bakını tərk etdi. Sentyabrın 15-də döyüşlər çox da uzun sürmədi. Sentrokaspi Diktaturası məğlubiyyətə uğradıldı. Milli Ordumuz Osmanlı dövlətinin Qafqaz İslam Ordusu ilə birlikdə Bakını və ətraf qəzaları işğaldan azad etdi.

Səhəri gün böyük qələbə münasibətilə hərbi parad keçirildi. Paradda Nuru paşa, Xəlil paşa, general Əliağa Şıxlinski, polkovnik Həbib bəy Səlimov, Azərbaycan parlamentinin, hökumətinin üzvləri, Bakı və ətraf kəndlərin sakinləri iştirak etdilər.

Hökumət rəsmiləri qoşun bölmələrinin müşayiəti ilə Bakıya daxil oldular. Möhtəşəm və tarixi qələbədən sonra Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin paytaxtı sentyabrın 17-də Gəncədən Bakıya köçürüldü.

Tədricən Azərbaycanın bütün ərazilərində daşnak-bolşevik silahlı qüvvələrinin zülmlərinə son qoyuldu. Azərbaycan ordusunun Hüseynxan Naxçıvanski, İbrahim ağa Usubov, Həmid Qaytabaşı, Kazım Qacar, Cavad bəy Şıxlinski, Həbibbəy Səlimov kimi generallarının adları hərb tariximizdə əbədiləşdi.

## Mətbuatımızın “Azərbaycan”ı...

1918-ci il sentyabrın 15-i həm də tariximizə mətbuatımızda ilk rəsmi dövlət qəzeti olan “Azərbaycan”ın nəşrə başladığı gün kimi yazıldı. Qəzetin ilk nömrəsi Gəncə şəhərində Yelizavetpol qubernatorunun mətbəəsində işıq üzü gördü. “Azərbaycan” qəzeti məmləkətinə qələbə müjdəsi ilə qədəm basdı. Sevinc böyük idi. Nuru Paşanın komandanlığı ilə Qafqaz İslam Ordusu və milli hərbi hissələrimiz Bakını bolşevik-daşnak işğalından azad edərək qalibiyyətlə şəhərə daxil olmuşdular. Qəzet ilk nömrəsində xəbər verirdi ki, Bakı azad edilərkən 30 minədək silahlı düşmən əsir alınmış, çoxlu qənimət ələ keçirilmiş, şəhərdə sakitlik bərqərar olmuşdur.

Nuru Paşa sentyabrın 15-də Gəncəyə göndərdiyi növbəti teleqramda Azərbaycan hökumətini Bakıya dəvət edirdi: “Gəncədə Azərbaycan Cümhuriyyəti Rəyasəti-Alisinə. Azərbaycan Cümhuriyyətinin paytaxtı olan Bakı şəhərini ziyarət etmək üzrə Heyəti-Vükəlanın yarın Bakıya təşriflərinə müntəzirəm, əfəndim. 15.09.18. Yavərani-həzrəti-şəhriyaridən. Farik-Nuru”.

Azərbaycan Xalq Cümhuriyyəti Heyəti-Vükəla (Nazirlər Şurası) rəisi Fətəli xan



Xoyskinin cavab teleqramında isə yazılırdı: “Qafqaz İslam Ordusu komandanı səadətli Nuru paşa həzrətlərinə. Təhti-komandanızda olan cəsur türk əsgərlərimiz tərəfindən Azərbaycanın paytaxtı olan Bakının düşməndən xilas edildiyi münasibətilə millətin zati-həmiyyətpərvəranələrinizə və dünyanın ən nəcib əsgəri olan türk oğullarına minnətdar olduğunu ərz etməklə iftixar edərim, əfəndim. Heyəti-Vükəla rəisi Fətəli xan”.

“Azərbaycan” qəzeti sonrakı günlərdə də Xalq Cümhuriyyətinin ən mötəbər tribunalarından biri oldu. Müstəqil hökumət bu qəzetin səhifələrindən öz vətəndaşlarına müraciətlərini ünvanladı, dostlarına, düşmənlərinə mövqeyini nümayiş etdirdi...

***Zöhrə FƏRƏCOVA,***
***“Azərbaycan”***

# “Xəzər Regionunun Ətraf Mühitinin Mühafizəsi Təşəbbüsü” üzrə anlaşma memorandumu imzalanıb

“Xəzər Regionunun Ətraf Mühitinin Mühafizəsi Təşəbbüsü” (Caspian Environmental Protection Initiative - CEPI) üzrə anlaşma memorandumu imzalanıb.



Məlum olduğu kimi, Azərbaycan Respublikası BMT-nin iqlim dəyişikliklərinə dair Çərçivə Konvensiyasına üzv dövlətlərin 21-ci konfransında qəbul olunan Paris Sazişini imzalayaraq istixana qazlarını azaltmaq və ekoloji cəhətdən davamlı gələcəyə yol açmaq niyyətini geniş beynəlxalq ictimaiyyətə göstərib. Paris sazişindən irəli gələn hədəfləri həyata keçirmək üçün SOCAR ətraf mühitin təhlükəsizliyi və resurslardan səmərəli istifadə edilməsi, karbon intensivliyinin azaldılması və bölgənin davamlı inkişafının təmin edilməsi istiqamətində ən qabaqcıl ekoloji tədbirləri və həll yollarını davamlı olaraq tətbiq edir.

Xəzər regionunun ekoloji dayanıqlığına təhlükə yaradan iqlim dəyişikliyi ilə mübarizə aparmaq, istixana qazlarının emissiyasını və ətraf mühitə atılan zərərli maddələrin qarşısını almaq üçün birgə proaktiv addımların atılması zəruridir. Bu səbəbdən SOCAR-ın təşəbbüsü əsasında SOCAR, “KazMunayGas”, BP, “Equinor Abşeron AS” və “Total E&P Absheron B.V.” şirkətlərinin təsisçiliyi ilə “Xəzər Regionunun Ətraf Mühitinin Mühafizəsi Təşəbbüsü” adlı səmərəli və müstəqil fəaliyyət göstərən regional Təşəbbüs Qrupu yaradılıb.

Qeyd edək ki, “Rosneft”, “Gazprom” və “Eni” şirkətləri CEPI-yə üzv kimi, BMT və BMT-nin İnkişaf Proqramı isə müşahidəçi qismində qoşulmaqları haqqında öz niyyətlərini bəyan ediblər.

AZƏRTAC xəbər verir ki, sentyabrın 14-də SOCAR-ın “Ekopark: Ekoloji Tədqiqatlar Mərkəzi”ndə CEPI üzrə anlaşma memorandumunun imzalanma tədbiri keçirilib. CEPI-nin İcra Komitəsinin sədri, SOCAR-ın ekologiya üzrə vitse-prezidenti Rəfiqə Hüseynzadə tədbiri açılış nitqi ilə başlayaraq təşəbbüsün gələcək fəaliyyəti və nəzərdə tutulan planlar haqqında məlumat verib.

Anlaşma memorandumu SOCAR-ın prezidenti Rövnəq Abdullayev, “KazMunayGas” şirkətinin İdarə Heyətinin sədri Alik Aydarbayev, BP şirkətinin Azərbaycan-Gürcüstan-Türkiyə regionu üzrə prezidenti Qəri Counz, “Equinor Abşeron AS” şirkətinin Azərbaycan üzrə ölkə meneceri Favad Qureyşi və “Total E&P Absheron B.V.” şirkətinin idarəedici direktoru Regis Agut tərəfindən imzalanıb.

Tədbirdə Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev, BMT-nin İnkişaf Proqramının ölkə üzrə rezident nümayəndəsi Alessandro Frakassetti və “Gazprom” şirkətinin Azərbaycan nümayəndəliyinin direktoru Maksut Anderjanov müşahidəçi qismində iştirak ediblər.

Anlaşma memorandumu imzalandıqdan sonra tədbir iştirakçıları “Ekopark: Ekoloji Tədqiqatlar Mərkəzi”nin ərazisində ağac əkiblər.

# Ağstafada 16 şəhid ailəsi və Qarabağ müharibəsi əlilinə ev verilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Ağstafa rayonunda inşa etdirilmiş 16 fərdi yaşayış evi şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə təqdim olunub.





Yeni evlərin təqdimetmə mərasimində çıxış edənlər demişlər ki, Prezident İlham Əliyevin sosial siyasətinin əsaslarından biri də həssas əhali qruplarına qayğının davamlı artırılmasıdır. Sosial müdafiə proqramları sırasında şəhid ailələrinin və Qarabağ müharibəsi əlillərinin mənzillə təmin edilməsinin xüsusi əhəmiyyəti var və həmin proqram ildən-ilə genişləndirilir. Dövlət başçısının tapşırığına əsasən, bu il şəhid ailələrinə və müharibə əlillərinə rekord sayda - azı 1500 mənzil və fərdi ev veriləcək. Ağstafa rayonunda təqdim edilən 16 fərdi ev də daxil olmaqla, artıq 584 nəfərə mənzil və fərdi ev (o cümlədən 554 mənzil və 30 fərdi ev) verilib. Qalan mənzillər və fərdi evlər ilin sonunadək təqdim olunacaq.

Ümumilikdə ötən illər ərzində şəhid ailələrinə və ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslərə 8172 mənzil və fərdi ev təqdim edilib. Bundan başqa, nazirlik tərəfindən müharibə əlilləri və onlara bərabər tutulan şəxslər indiyədək 6900 minik avtomobili ilə təmin olunub.

Yeni fərdi yaşayış evi ilə təmin edilən şəhid ailələrinin üzvləri və Qarabağ müharibəsi əlilləri onların rifahına göstərilən yüksək qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

# Şərqi Aralıq dənizində gərginlik artır

## Region silahlı qarşıdurma meydanına çevrilə bilər



Aralıq dənizinin şərq hissəsi son aylaradək heç vaxt gərginlik ocağı olmamışdı. Sahilyanı ölkələr arasında dənizdə hansısa münaqişə yaşanmamışdı. İndisə Şərqi Aralıq dənizi regionu son dərəcə gərgin vəziyyətin şahididir. Gərginlik, ilk növbədə, Yunanıstanla Türkiyə arasında müşahidə edilir. Əslində isə Yunanıstan bu prosesdə daha çox alət rolunu oynayır. Məqsəd Türkiyəni Aralıq dənizindən vurub çıxarmaq və ölkəni öz sahilində “həbs etmək”dir: elə bil ki, Türkiyənin dənizlə heç bir əlaqəsi yoxdur.

2000-ci illərdə burada geoloji kəşfiyyat nəticəsində karbohidrogen ehtiyatlarının mövcudluğu barədə məlumat əldə edildikdən sonra region diqqət mərkəzinə düşdü. Burada ilk böyük təbii qaz yatağı İsrailin müstəsna iqtisadi zonasında, Hayfa şəhərindən təxminən 90 kilometr aralıda aşkarlandı. Yataqda 280 milyard kubmetr təbii qaz olduğu təxmin edilir. Ardınca başqa yataqlar da kəşf olundu.

2010-cu ilin məlumatına görə, Şərqi Aralıq dənizinin təkcə Kipr, Livan, Suriya və İsrail arasında Levant hövzəsi adlanan hissəsində 1,7 milyard barel neft və 3,45 trilyon kubmetr təbii qaz olduğu təxmin edilir. Bu məlumat sahilyanı ölkələrin iştahasını əməlli-başlı qabartdı. Hamı bu böyük kökədən mümkün qədər çox pay götürmək üçün yarışa girdi. Beləcə, Şərqi Aralıq dənizinin əhəmiyyəti özünü daha bariz şəkildə göstərməyə başladı, qonşu ölkələrin bir-biri ilə problemləri və müstəsna iqtisadi zonaların sərhədləri barədə fikir ayrılıqları ortaya çıxdı.

Təbii ki, belə bir mürəkkəb şəraitdə sahilyanı ölkələrin bir araya gəlib problemləri həll etməkdən başqa yolu olmamalı idi. Bir sıra ölkələr, ilk növbədə, Yunanıstan tamamilə fərqli istiqamət götürdü: Afinanın məqsədi Avropa İttifaqı (Aİ) ölkələrini arxasına alaraq Türkiyəni Şərqi Aralıq dənizində karbohidrogen payından məhrum etməkdir. Bu işdə təhrikçi kimi Fransa çıxış edir.

Belə olan təqdirdə Türkiyə ötən ilin noyabrında Liviya legitim hökuməti - paytaxt Trablisdə fəaliyyət göstərən milli barışıq hökuməti ilə dəniz sərhədlərinin müəyyənləşdirilməsi haqqında saziş imzalayıb BMT-yə təqdim etdi. Beləliklə, həm Türkiyənin, həm də Liviyanın Aralıq dənizinin şərqində mövcudluğu qanuniləşdi. Lakin Yunanıstan Aİ üzrə müttəfiqlərinə arxalanaraq bu sazişi tanımaqdan boyun qaçırdı: guya ki, Türkiyə ilə Liviya arasında imzalanmış sənəd beynəlxalq hüquqa ziddir.

Vəziyyətdən çıxış yolu kimi Liviyanın legitim hökumətini devirmək planı işə düşdü, çünki belə olan halda Türkiyə ilə bağlanmış sazişi qüvvədən salmaq və bununla Ankaranın Şərqi Aralıq dənizi ilə bağlı iddialarına son qoymaq mümkün idi. Belə bir cəhd edildi. Yunanıstanın havadarları Liviyanın şərqindən gəlmiş qanunsuz silahlı birləşmələrə hərtərəfli dəstək verdilər. Qiyamçı general Xəlifə Həftərin komandanlıq etdiyi birləşmələr Trablisin ətrafına gəlib çıxmışdı. Elə bir təsəvvür yaranmışdı ki, hökumətin süqutu an məsələsidir. Lakin Türkiyə vəziyyətə gecikmədən müdaxilə etdi, nəticədə Həftərin dəstələri paytaxtdan xeyli uzaqlaşdırıldı və qanuni hökumətin devrilməsinin qarşısı alındı.

Beləliklə, Türkiyə ilə haqq-hesab çəkməyin ən asan yolu əldən çıxdı. Ona görə də Ankaranı “buxovlamaq” üçün mümkün olan bütün vasitələr işə salınır. Bir tərəfdən, Türkiyənin beynəlxalq hüququ pozması təkrar-təkrar iddia olunur, digər tərəfdən isə, hərbi ritorika nəzərə çarpır. Fransa başda olmaqla Şərqi Aralıq dənizinə aidiyyəti olmayan İspaniya, İtaliya, Portuqaliya, Malta, hətta Birləşmiş Ərəb Əmirlikləri kimi ölkələr fəallaşır, Türkiyəni susdurmaq üçün çəkici eyni zindana vururlar. Gərginliyi azaltmaq üçün sahilyanı ölkələr arasında dialoq qurmağa çağıran ABŞ-ın bu yaxınlarda Kiprə qarşı 33 il əvvəl tətbiq etdiyi silah embarqosunu yumşaltmağı və adanın cənubunu ABŞ-ın İMET hərbi təlim proqramına daxil edilməsini qərarlaşdırması heç də problemin nizamlanmasına xidmət etmir, əksinə, antitürk kampaniyasının qızışmasına zəmin yaradır, regionda sülhün və sabitliyin bərqərar olmasına töhfə vermir. Bu azmış kimi, Vaşinqton cari ayın 12-də yunan Kipri ilə adanın cənubunda Quru, Dəniz və Liman Təhlükəsizliyi Mərkəzi adlı təlim mərkəzinin yaradılmasını nəzərdə tutan anlaşma memorandumu imzalamışdır. Sənəd Kiprin türk icmasının maraqlarını nəzərə almır. Başqa sözlə, ABŞ adanın iki icması arasında qüvvələr nisbətini pozur ki, bu da Kiprdə danışıqlar prosesinə zərbə vurur.

Ankaranın cərəyan edən hadisələri münasibəti birmənalıdır: Türkiyə nəyin bahasına olursa-olsun, Şərqi Aralıq dənizində milli maraqlarını qoruyub saxlamaqda israrlıdır, kənardan təzyiqlərə boyun əymək fikrində deyil. Eyni zamanda Türkiyə regionda gərginliyin azaldılması naminə Yunanıstanla dialoqa girməyə hazırdır. Qarşı tərəf də ara-sıra dialoqdan söz açır. Bəs elə isə, niyə dialoq baş tutmur? Məsələ burasındadır ki, Yunanıstan danışıqlar masası arxasında oturmaqdan qabaq ilkin şərtlər irəli sürür. Bu şərtlərin məğzi Türkiyənin Şərqi Aralıq dənizindən tamamilə çəkilməsi və hər cür “təxribat”a son qoymasından ibarətdir. Amma Türkiyə də ilkin şərtlər irəli sürə bilər. Özü də Afinanın regionda Ankaraya münasibətdə yaratdığı narahatlıq kifayət qədər əsaslıdır. Belə ki, Yunanıstan 1947-ci il tarixli Paris sazişini pozaraq Türkiyə sahilinin yaxınlığındakı adaları hərbiləşdirir, burada silahlar və hərbi qüvvə yerləşdirir. Belə bir şəraitdə dialoqun baş tutacağını gözləmək çətindir.

Digər tərəfdən, Afina müdafiə xərclərini üç dəfə artırmağı və qarşıdakı doqquz il ərzində 10 milyard avro dəyərində silah almağı planlaşdırır. Yunanıstanın əsas silah təchizatçısının Fransa olacağı gözlənilir. Afina və Paris bu barədə artıq razılaşma əldə etmişlər. Yunanıstan hökuməti yeni hərbi təyyarələr, helikopterlər və freqatlar almağı planlaşdırır. Hərçənd ölkənin iqtisadi vəziyyəti heç də ürəkaçan deyil. Büdcə kəsiri artmaqda davam edir. Yerli mütəxəssislər on ildən çoxdur ölkəni çənginə almış iqtisadi tənəzzülün bundan sonra da davam edəcəyini proqnozlaşdırırlar.

Şərqi Aralıq dənizində Yunanıstan-Türkiyə qarşıdurması hələ də davam edir. Vəziyyətədn çıxış yolu görünmür. Antitürk kampaniyasını qızışdıranlar növbəti addım kimi cari ayın 24-25-də keçirilməsi nəzərdə tutulan Aİ sammitində Türkiyəyə qarşı sanksiyalar tətbiq edilməsinə nail olmaq niyyətindədirlər.

***Allahverdi MEHDİYEV,***
***“Azərbaycan”***

Biz birlikdə güclüyük!

# Sərt karantin sürətlə yumşalır

## Qarşıda duran əsas vəzifə isə COVID-19-un yayılmasına, yeni yoluxma nöqtələrinin yaranmasına imkan verməməkdir

*Əvvəli 1-ci səh.*



Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın Azərbaycanda COVID-19 pandemiyası ilə mübarizə tədbirləri ilə bağlı tapşırıq və göstərişlərinə uyğun olaraq, bütün istiqamətlərdə əsaslı işlər həyata keçirilir. Vətəndaşlarımızın sağlamlığı və təhlükəsizliyinin etibarlı müdafiəsi üçün zəruri addımlar atılır. Səhiyyə sahəsinin dərhal pandemiya ilə mübarizəyə yönəldilməsi, eyni zamanda insanların sosial rifahlarının təmin edilməsi ölkəmizdə COVID-19-la mübarizədə nailiyyət əldə olunmasının başlıca səbəblərindəndir.

### Əsas məqsəd bütün yoluxanların müayinədən keçirilməsi və onlara vaxtında tibbi xidmət göstərilməsidir

İnfeksiyanın yoluxma sürətini aşağı salmaq və onu nəzarətolunan səviyyədə saxlamaq isə birbaşa xəstəliyin erkən aşkarlanmasından asılıdır. Bu vacib məsələ də ölkəmizdə diqqət mərkəzindədir və heç təsadüfi deyil ki, adambaşına düşən testlərin sayına görə, Azərbaycan dünya miqyasında qabaqcıl yerlərdədir.

Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli növbəti hospitalının açılışında videoformat şəklindəki çıxışı zamanı Prezident İlham Əliyev bu məsələni xüsusi vurğuladı: "COVID ilə mübarizədə bizim səhiyyə sistemimizin maddi-texniki bazası xüsusi rol oynayır. Bununla bərabər, laboratoriyaların sayını böyük dərəcədə - bir neçə dəfə artırmışıq. Pandemiya başlayanda bizim cəmi 6 laboratoriyamız var idi. Bu gün biz laboratoriyaların sayını 45-ə çatdırırıq. Ölkəmizdə 900 mindən çox test keçirilibdir. Adambaşına düşən testlərin sayına görə, Azərbaycan dünya miqyasında qabaqcıl yerlərdədir. Bu da təbiidir, nə qədər çox test keçirirsən, o qədər də çox yoluxma halları aşkarlanır. Bizim əsas məqsədimiz və vəzifəmiz məhz bundan ibarətdir ki, bütün yoluxanlar müayinədən keçirilsin və onlara vaxtında tibbi xidmət göstərilsin".

Qeyd edək ki, hazırda ölkəmizdə koronavirusla bağlı keçirilən testlərin ümumi sayı 1 milyonu ötüb. Respublikamızda ilk dəfə olaraq Bakıda keçirilən seroloji testlər də yekunlaşmaq üzrədir. Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) Mikrobiologiya İşçi Qrupunun rəhbəri Qumral Ələkbərova məlumat verib ki, artıq təsadüfi seçilmiş 1000-dən artıq könüllü test edilib və onların qan zərdabında virus əleyhinə anticisimlərin yaranıb-yaranmadığı aşkar ediləcək. İşçi qrupunun rəhbəri seroloji testlərin proqnostik əhəmiyyət daşıdığını və hazırda əhalinin neçə faizinin yeni növ koronavirus (COVID-19) xəstəliyi keçirməsini öyrənməyə imkan verəcəyini bildirib: "Seroloji testlər nəticəsində əhalinin yarıdan çoxunda anticisimlərin yaranmasının aşkar edilməsi karantin rejimində məhdudiyyətlərin ləğv olunması üçün əsas verəcək. Nümunə götürülənlərin az qismində anticisimlərin aşkar edilməsi karantin rejimində sərtləşdirməyə ehtiyac olduğunu ortaya çıxaracaq".

### Sanitar-epidemioloji vəziyyətə uyğun addımlar atılır

Sadalanan effektiv tədbirlərin nəticəsidir ki, avqustun 5-dən vətənimizdə mərhələli şəkildə sərtləşdirilmiş xüsusi karantin rejiminin yumşaldılmasına, bir sıra məhdudiyyətlərin aradan qaldırılmasına başlanılıb. SMS icazə sistemi ləğv edilib, çimərliklər açılıb, bir sıra istehsal, ticarət və xidmət sahələrinin fəaliyyətinə icazə verilib. İri ticarət mərkəzləri və "Mall"lardan başqa, qeyri-ərzaq məhsullarının satışı ilə məşğul olan mağazalar açılıb, bəzi sahələr üzrə işə cəlb olunan işçilərin sayına tətbiq edilmiş məhdudiyyətlər aradan götürülüb. Nazirlər Kabinetinin qərarına əsasən, ölkə üzrə muzeylərin və sərgi zallarının fəaliyyəti ilə bağlı məhdudiyyətlər aradan qaldırılıb. Eyni zamanda xüsusi karantin rejiminin qaydalarına riayət etməklə 10 nəfərədək qruplarda fərdi tədris və repetitor xidmətlərinə icazə verilib.

Operativ Qərargahın qərarına əsasən, sanitar-epidemioloji vəziyyətə uyğun olaraq 8 sentyabrdan Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonuna gediş-gəlişlə əlaqədar tətbiq olunmuş məhdudiyyətlər aradan qaldırılıb (şəhərlərarası və rayonlararası sərnişindaşıma istisna olmaqla).

Eyni zamanda sözügedən tarixdən müvafiq karantin qaydalarına riayət olunmaqla və Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Koronavirus (COVID-19) pandemiyası dövründə ictimai iaşə müəssisələrinə müştəri qəbulu ilə bağlı bəzi məsələlərin tənzimlənməsi barədə" 6 iyul tarixli Qərarına uyğun olaraq ictimai iaşə obyektlərinin daxilində xidmət göstərilməsinə icazə verilib.

Həmçinin çimərliklərdəki ictimai iaşə obyektlərinin fəaliyyətinə qoyulan qadağa da aradan qaldırılıb. Artıq Bakı Metropoliteninin sərnişindaşıma fəaliyyəti də ötən gündən bərpa edilib.

### Təhsil Nazirliyindən valideynlərə vacib müraciət

Yumşalma qərarları çərçivəsində ölkə ərazisində təhsil müəssisələri də bu gündən mərhələli şəkildə açılır. İlk olaraq ibtidai siniflərdə dərslər keçiriləcək. Yuxarı sinif şagirdləri isə onlayn tədrisə başlayacaqlar. Zamanla bu siniflərdə təhsil alan şagirdlər üçün də ənənəvi təhsil bərpa ediləcək. Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən, bu gündən Bakı şəhəri üzrə fəaliyyət göstərən dövlət və özəl uşaq bağçalarının da açılmasına icazə verilib. Müvafiq hazırlıq və tibbi-profilaktik tədbirlərdən sonra epidemioloji vəziyyətə uyğun olaraq 1 oktyabr tarixədək bağçaların tam açılması nəzərdə tutulur.

Təhsil Nazirliyindən verilən məlumata görə, bütün məktəblərdə COVID-19 pandemiyası ilə bağlı kiçik tibb məntəqələri olacaq. Bu il kütləvi tədbirlər qadağan olunduğundan bilik günü də keçirilməyəcək və bütün siniflərdə ilk dərs pandemiya qaydalarına həsr olunacaq.

Məlumata əsasən, bütün məktəblərə hərarəti ölçmək üçün cihazlar və dezinfeksiya məhsulları alınıb. Şagirdlər hərarəti ölçülərək məktəbə buraxılacaq. Onların maska taxması isə məcburi deyil və istəsələr bu vasitələri alaraq könüllü istifadə edə bilərlər. Peşə, orta ixtisas və ali təhsil müəssisələrində isə maska taxmaq məcburi olacaq.

Təhsil Nazirliyinin yanında da Operativ Qərargah olacaq. Orada gündəlik yoluxanların statistikası aparılacaq və vəziyyətdən asılı olaraq lazımi addımlar atılacaq.

Məktəblərdə bufetlər işləməyəcək. Şagirdlər məktəbə yemək gətirərək tənəffüs vaxtı sinifdə yeyə biləcəklər. Təhsil Nazirliyinin rəsmiləri valideynlərə müraciət edərək bildiriblər ki, səhhətində hər hansı problem, COVID-ə bənzər simptomlar olan şagirdi məktəbə gətirməsinlər.

Göründüyü kimi, dövlətimiz tərəfindən pandemiyaya qarşı həyata keçirilən düzgün strategiya sayəsində yuxarıda sadalanan və daha toxunmadığımız bir çox məsələlərdə irəliləyiş əldə olunub. Virusla mübarizədə əldə olunan müsbət tendensiyanın davamlı olması isə vətəndaşların məsuliyyətindən və qoyulan qaydalara riayət etməsindən birbaşa asılıdır. Onu da nəzərə almaq lazımdır ki, qarşıdan payız-qış mövsümü, həmçinin digər xəstəliklərin fəallaşdığı dövr gəlir. COVID-19-la birlikdə bu xəstəliklər insan orqanizmi üçün ciddi təhlükədir. Buna görə də koronavirusun yayılmasına, yeni yoluxma nöqtələrinin yaranmasına imkan verməməliyik.

Xüsusilə də, tədris müəssisələrinin fəaliyyətə başladığı hazırkı dövrdə qarşıda duran əsas vəzifələrdən biri övladlarımızı bu problemdən qorumaq, onların təhsil prosesinə normal şəraitdə qovuşmasını təmin etməkdir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Azərbaycanda koronavirus infeksiyasından 104 nəfər sağalıb, 76 yeni yoluxma faktı qeydə alınıb




Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 104 nəfər müalicə olunaraq sağalıb, 76 yeni yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 38 min 403 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 35 min 860 nəfər müalicə olunaraq sağalıb, 564 nəfər vəfat edib. Aktiv xəstə sayı 1979 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 13 min 108 test aparılıb. Dünənki test sayı isə 3630-dur.

## Baş Dövlət Yol Polisi İdarəsi yeni dərs ilinin başlaması ilə əlaqədar hərəkət iştirakçılarına müraciət ünvanlayıb

Daxili İşlər Nazirliyinin (DİN) Baş Dövlət Yol Polisi İdarəsi yeni dərs ilinin başlaması ilə əlaqədar hərəkət iştirakçılarına müraciət edib.

İdarənin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a daxil olan müraciətdə bildirilib ki, yeni dərs ilinin başlanması ilə əlaqədar sentyabrın 15-də orta təhsil müəssisələrinin yerləşdiyi küçə və yollarda, xüsusilə də paytaxt ərazisində nəqliyyat vasitələrinin və piyadaların hərəkət intensivliyinin artacağı ehtimal olunur. Bunu nəzərə alaraq, DİN Baş Dövlət Yol Polisi İdarəsi hərəkət iştirakçılarından xahiş edir ki, şagirdləri məktəbə aparan valideynlər küçə və yollarda təhlükəsiz hərəkət qaydalarına, övladlarını məktəbə avtomobillərlə aparan sürücülər həmin ərazidəki dayanma, durma və parklanma qaydalarına, ictimai nəqliyyat vasitələrindən istifadə edən valideynlər isə tövsiyə olunan sosial məsafəni saxlamaqla tənəffüs yollarını qoruyan tibbi maskalardan istifadə qaydalarına ciddi riayət etsinlər.

"Ümid edirik ki, azyaşlıların təhlükəsizliyinin təmin olunması, paytaxtda nəqliyyat sıxlığının yaranmaması, digər hərəkət iştirakçılarının rahat və fasiləsiz hərəkətinin təmin olunması üçün hər bir hərəkət iştirakçısı müraciətimizə düşünülmüş şəkildə yanaşacaq və üzərinə düşən vəzifəni yerinə yetirməklə ilk dərs günündə azyaşlı məktəblilərə yollarda çətinlik yaşatmayacaq, eləcə də polisin gördüyü tədbirlərə yardımçı olmaqla koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınmasında vətəndaşlıq mövqeyini nümayiş etdirəcək", - deyə müraciətdə qeyd olunub.

## Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Avrasiya Patent Təşkilatının iclasında iştirak edib

Sentyabrın 10-11-də Avrasiya Patent Təşkilatının (APT) İnzibati Şurasının videokonfrans formatında otuz altıncı iclası keçirilib.



Tədbirdə APT-nin üzv dövlətləri - Azərbaycan, Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Rusiya, Tacikistan və Türkmənistanın səlahiyyətli nümayəndələri, həmçinin Avrasiya Patent İdarəsinin (APİ) və Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) nümayəndələri iştirak ediblər.

Bu barədə AZƏRTAC-a Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyindən məlumat verilib. Bildirilib ki, iclasda sənaye nümunələrinin hüquqi qorunması üzrə Avrasiya sisteminin yaradılması layihəsinin həyata keçirilməsinin vəziyyəti, APT tərəfindən "Patent kooperasiyası haqqında" müqaviləyə əsasən, beynəlxalq axtarış orqanı və beynəlxalq ilkin ekspertiza orqanı statusunun istənilməsi xahişi, Avrasiya Patent Konvensiyasının (APK) Maliyyə Təlimatının yenilənməsi, APT çərçivəsində mübahisələrin baxılması prosedurunun təkmilləşdirilməsi və digər məsələlər müzakirə olunub. Həmçinin "Patent kooperasiyası haqqında" müqavilə ilə uyğunlaşma məqsədilə APK-nın Patent Təlimatına və APT-nin Rüsumlar haqqında Əsasnaməsinə dəyişikliklər edilib.

Azərbaycan Respublikasının APT-nin İnzibati Şurasındakı səlahiyyətli nümayəndəsi, Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov müzakirə olunan məsələlərlə əlaqədar ölkəmizin mövqeyini bildirib və müvafiq təkliflər verib.

Tədbirdə APİ-nin prezidenti Saule Tlevlessovanın APT-nin 2019-cu il üçün hesabatı dinlənilib. Eyni zamanda APT-nin 2021-ci il üçün büdcəsinə baxılıb və qəbul edilib. APT-nin İnzibati Şurası tərəfindən S.Tlevlessovanın ÜƏMT-nin Baş direktorunun müavini və ya köməkçisi vəzifəsinə irəli sürülməsi qərara alınıb.

İclasın sonunda APT-nin İnzibati Şurasının yeni sədri və müavinləri seçilib.

## Gənc əsgərlər döyüş təyinatlı birləşmə və hissələrə yola salınıblar



Əlahiddə Ümumqoşun Orduda ixtisas hazırlığı kursları başa çatan gənc əsgərlər döyüş təyinatlı birləşmə və hissələrə yola salınıblar.

Əlahiddə Ümumqoşun Ordunun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra çıxış edənlər məşğələlərdə yenilməz döyüşçü keyfiyyətlərinə yiyələnən gənc əsgərlərə xidmətlərində uğurlar arzulayıblar.

General-mayor Teymur Eyyubov şəxsi heyəti təbrik edərək bildirib ki, Naxçıvanda keçirilən Azərbaycan-Türkiyə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təliminin birinci mərhələsində hərbi qulluqçuların tapşırıqları peşəkarcasına yerinə yetirməsi kurslarda qazanılanların nəticəsidir. İnanırıq ki, ixtisas hazırlığı kurslarını uğurla başa vuran əsgərlərimiz də hər zaman nümunəvi xidmətləri ilə seçiləcəklər.

Çıxışların ardından əsgərlər müxtəlif ixtisaslar üzrə qazandıqları bilik və bacarıqlarını nümayiş etdiriblər.

Bölmələrin təntənəli keçidi ilə gənc əsgərlər növbəti xidmət yerlərinə yola salınıblar.

## BMT Baş Assambleyası koronavirus xəstəliyi ilə bağlı qətnamə qəbul edib

BMT Baş Assambleyası "Koronavirus xəstəliyinin pandemiyasına qarşı hərtərəfli və əlaqələndirilmiş reaksiya tədbirləri barədə" qətnamə qəbul edib.



AZƏRTAC xəbər verir ki, sənəddə COVID-19 epidemiyasına qarşı qlobal reaksiyanın əsas siyasi və sosial-iqtisadi ölçüləri öz əksini tapıb. Burada koronavirusa qarşı mübarizə məqsədilə ilkin tibbi-sanitariya yardımı, səhiyyə xidmətlərinin ümumi əhatə olunması və əhalinin peyvənd olunması, eləcə də bütün dövlətlərin davamlı inkişaf naminə iqtisadiyyatın bərpası üzrə səylərinin əlaqələndirilməsinin vacibliyi vurğulanır. Üzv ölkələr BMT sisteminin milli hökumətlərin qəbul etdiyi tədbirlərə yardım etmək üçün gördüyü işləri bəyəndilər və BMT-nin Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) ümumi sistem səylərində əsas liderlik rolunu etiraf etdilər.

## Ermənistan beynəlxalq hüququ pozmaqda davam edir

### Qarabağda artıq Livan ermənilərinin ilk ailələri yaşayır

Azərbaycan ərazilərini hələ də işğal altında saxlayan Ermənistan hərbi cinayətlərini davam etdirmək siyasətindən də əl çəkmir. Livanın Beyrut şəhərində baş vermiş dəhşətli partlayışdan sonra Ermənistan burada olan etnik ermənilərin qanunsuz olaraq Azərbaycanın işğal edilmiş ərazilərində məskunlaşdırılması siyasətinə başlayıb.

Bu istiqamətdə artıq müəyyən addımlar atılıb. Məlumata görə, xeyli sayda Livan ermənisi Ermənistana gətirilib. Onların bir qismi zəbt edilmiş Azərbaycan ərazilərində məskunlaşdırılıb.

Qarabağ separatçılarının lideri Araik Arutyunyan hətta "Facebook" sosial şəbəkəsində Livandan ermənilərin Qarabağa köçürülməsi barədə videoreportaj yayımlayıb: "Artıq Qarabağda Livan ermənilərinin ilk ailələri yaşayır. Bizim hökumət onlara öz imkanları daxilində yardım göstərir. Biz Qarabağda Livan-Ermənistan koloniyasının yaradılmasında və saxlanmasında maraqlıyıq".

Xatırladaq ki, 26 avqust 2020-ci il tarixində Ermənistanın Diasporla İşlər üzrə Baş Komissarı ofisinin mətbuat xidməti Zare Sinanyan iki Livan erməni ailəsinin işğal olunmuş Şuşaya köçürülməsi barədə məlumat yaymışdı. Bundan əvvəl Dağlıq Qarabağdakı separatçı rejimin liderləri müxtəlif şəhər və kəndlərdə Livandan 100-150 erməni ailəsini qəbul etməyə hazır olduqlarını bildirmişdilər. "Azərkosmos" ASC-nin "Azersky" peyki vasitəsi ilə aparılan monitorinqləri nəticəsində də işğal olunmuş Kəlbəcər rayonunda qanunsuz mənzil tikintisi faktı təsdiqlənib.

İşğalın nəticələrini legitimləşdirmək və status-kvonu qoruyub saxlamaq niyyətində olan Ermənistanın məqsədi Dağlıq Qarabağ münaqişəsi ilə bağlı sülh danışıqları prosesini tamamilə fiaskoya uğratmaqdır. Digər tərəfdən, son günlər Ermənistan işğal edilmiş ərazilərimizdə yaratdığı qondarma rejimin dili ilə Azərbaycanın digər ərazilərini də işğal etmək niyyətini bir daha açıq şəkildə səsləndirməyə başlayıb və Gəncə şəhərini raket atəşinə tutmaqla hədələyib.

Burada bir məqamı da xatırladaq ki, beynəlxalq hüquqa əsasən, təcavüzkar dövlət tərəfindən işğal olunmuş ərazilərdə məskunlaşma siyasətinin aparılması hərbi cinayət kimi qəbul edilir. Maraqlıdır ki, Ermənistanın özünün qanunvericiliyinə görə də bu əməllər cinayət hesab olunur. Belə ki, Ermənistanın Cinayət Məcəlləsinin 390-cı maddəsində təcavüzkar dövlətin işğal olunmuş ərazilərdə əhalini çıxararaq öz əhalisini məskunlaşdırması beynəlxalq humanitar hüququn ciddi pozuntusu sayılır və 8-12 il cəza nəzərdə tutulur.

Amma həmişəki kimi ermənilər yenə beynəlxalq hüququ heçə sayır. Ermənistanın dispor üzrə baş komissarı Ovannes Aleksanyan bildirib ki, Beyrutda baş verən dəhşətli partlayışdan sonra bu ölkədən Ermənistana 1100-dən çox erməni gəlib. Gələnlərin işlə təmin olunmasına dövlət qurumları ilə yanaşı, özəl şirkətlər də yardım edir: "Livan ermənilərinin böyük əksəriyyəti Yerevanda yerləşdirilib, 10 nəfər isə Qarabağda məskunlaşdırılıb".

Bununla Livan ermənilərinin qanunsuz olaraq işğal altındakı Qarabağda yerləşdirilməsi prosesini Ermənistan faktiki olaraq gizlətmir. Buna baxmayaraq, yerləşdirilənlərin daha çox olduğu, sadəcə, sayın gizlədildiyi ehtimalı da çox yüksəkdir. Dağlıq Qarabağda yerli ermənilər və köçürülənlər sosial problemlərin ağırlığına tab gətirmədikləri üçün kütləvi şəkildə yaşadıqları yerləri tərk edirlər. Hətta koronavirus pandemiyasına görə tətbiq olunan karantin rejimi yumşalmaya başlayan kimi Qarabağdakı ermənilərin evlərini tərk etməsi daha da intensivləşib. Qarabağdakı ermənilərin evlərini tərk etməsi və demoqrafik vəziyyətin işğal siyasətinə uyğun olmaması Ermənistan hakimiyyətini qanunsuz köçürməni sürətləndirməyə məcbur edir.

İşğalçı ölkənin digər məqsədi Livandan Qarabağa köçürülən ermənilərin muzdlu əsgər kimi istifadə edilməsidir. Bunun fonunda Yaxın Şərq ölkələrindən Qarabağa köçürülən ermənilərdən müharibə vaxtı muzdlu əsgər kimi istifadə edilməsi də planlaşdırılır. 1990-cı illərdə Azərbaycan torpaqlarının işğalı zamanı Suriya və Livandan erməni muzdluların gətirilməsi, azərbaycanlılara qarşı soyqırımlarda onların xüsusi rol oynaması təcrübəsi fonunda bu o qədər də təəccüblü deyil. Amma baş verənlər Qarabağ münaqişəsi ilə bağlı danışıqlar prosesinin məqsədli şəkildə pozulmasıdır.

Belə qanunsuz məskunlaşma siyasətini açıq şəkildə aparılmasına göz yumulması, xüsusən də buna ATƏT-in Minsk qrupunun səssiz qalması işğalçı Ermənistanı beynəlxalq hüququ pozmağa sövq edən amildir. Bunun nəticəsi isə, sadəcə, savaşı tətikləyir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# “Azercell” beynəlxalq səviyyədə “İlin şirkəti” seçildi

## Lider operator dünyaşöhrətli “STEVIE 2020” mükafatının üçqat laureatı oldu

Yeni brend kimliyi ilə ölkənin telekommunikasiya sektorunun lideri “Azercell Telekom” MMC Azərbaycanda qazandığı uğurları dünyaya daşıyaraq və ölkəmizi beynəlxalq arenada uğurla təmsil edərək nüfuzlu “STEVIE 2020” müsabiqəsində yüzlərlə şirkət arasında “İlin telekommunikasiya şirkəti” adını qazanıb.




Şirkət bu nominasiya üzrə ən yüksək pillədə qərarlaşaraq qızıl mükafatı əldə edib. “Azercell” eyni zamanda “İlin ən innovativ şirkəti” və “Ən dəyərli korporativ məsuliyyətli şirkət” nominasiyaları üzrə bürünc mükafata da layiq görülüb.

“Azercell”in rəqəmsallaşma və innovativ texnologiyaların tətbiqi istiqamətində gördüyü işlər, korporativ sosial məsuliyyət sahəsində fəaliyyəti müstəqil beynəlxalq mütəxəssislərdən ibarət münsiflər heyəti tərəfindən yüksək dəyərləndirilib. Münsiflər “Azercell”in həm ölkədə, həm də Cənubi Qafqazda yeni nəsil texnologiyaları ilk tətbiq etməsi, ən son innovativ həlləri yerli bazara gətirməsi və eyni zamanda yüksək sosial məsuliyyətli siyasət həyata keçirməsini xüsusi vurğulayaraq, Azərbaycanın aparıcı operatorunu “regionun ən uğurlu şirkəti”, “dünya səviyyəli qurum”, “qalib brend” kimi xarakterizə ediblər.

Qeyd edək ki, müxtəlif illərdə Google, Microsoft Corporation, Türk Telecom, Vodafon Türkiyə, Etisalat, Dell Technologies, Mayersk Company, HP Inc., UNESKO ICHCAP, IBM və s. bu kimi nüfuzlu şirkətlər bu beynəlxalq müsabiqədə iştirak edərək qalib seçilənlər sırasındadır.

“STEVIE” İnternational Business Awards biznesin bütün aspektlərini əhatə edən, müxtəlif sahələrdə çalışan şirkətlərin uğurunu qiymətləndirən və onları bütün dünyaya tanıdan bir mükafatdır. Bu il “STEVIE” mükafatı dekabrda Parisdə təşkil olunacaq mərasimdə qaliblərə təqdim olunacaq.

# “İrəli” İctimai Birliyindən gənclərə dəstək

“İrəli” İctimai Birliyi gənclərin bilik və bacarıqlarının artırılmasına, onların şəxsi inkişafına dəstək məqsədilə yenidən təcrübə proqramı elan edir.




İctimai birlikdən AZƏRTAC-a bildirilib ki, proqramda iştirak etmək istəyən gənclər qurumun “İnsan resursları”, “Mətbuat katibliyi”, “İrəli” Media Mərkəzi, “Beynəlxalq əlaqələr katibliyi”, “Layihələrlə iş üzrə katiblik” istiqamətləri üzrə müraciət edə bilərlər. Təcrübə proqramına gənclərin seçim prosesi müraciətlərin qəbulu və onlayn müsahibə üzrə iki mərhələdə aparılacaq. Mövcud pandemiya vəziyyəti ilə əlaqədar gənclər əsasən sərbəst və məsafədən iş prinsiplərində fəaliyyət göstərəcəklər.

Üç ay davam edəcək təcrübə müddətini uğurla başa vuracaq gənclər şəhadətnamə ilə təltif olunacaqlar. Təcrübə proqramına 17-25 yaşlarında təşəbbüskar, məsuliyyətli, komanda ilə işləmə bacarığına sahib olan gənclər qatıla bilərlər.

Qeyd edək ki, təcrübə proqramı ödənişsiz əsaslarla həyata keçirilir. Ərizələr sentyabrın 20-də saat 12:00-dək qəbul ediləcək. Qeydiyyat və ətraflı məlumat üçün **http://ireli.az/tecrubeqazan/** keçidindən istifadə etmək lazımdır.

# “Gələcəyimizi qoruyaq!” aksiyasına start verilib





Azərbaycan Respublikası Gənclər Fondu, UNICEF-in Azərbaycan nümayəndəliyi və Azərbaycan Könüllü Təşkilatları İttifaqı “Gələcəyimizi qoruyaq!” aksiyasına start veriblər.

Gənclər Fondundan AZƏRTAC-a bildiriblər ki, paytaxt da daxil olmaqla respublikanın 33 şəhər və rayonunda keçirilən aksiyada uşaqları fiziki və mənəvi cəhətdən qorumaq, onlara diqqət və qayğı göstərmək məqsədilə könüllülər uşaqlara COVID-19 pandemiyasından qorunmaq üsullarını əyləncəli şəkildə təsvir edən kitabçalar paylayır, xüsusən son dövrlərdə şəxsi gigiyenanın, sosial məsafə və maska istifadəsi kimi qaydalara əməl etməyin onların sağlamlığı üçün vacibliyini izah edirlər.

Daha öncə də vətəndaşların maarifləndirilməsi üçün müxtəlif genişmiqyaslı layihələr həyata keçirən Azərbaycan Könüllü Təşkilatları İttifaqı ölkəmizdə könüllülük hərəkatının daha geniş vüsət alması və səmərəliliyinin gücləndirilməsi məqsədilə avqustun 20-də təsis olunub.

İttifaqın missiyası Azərbaycanda könüllülük hərəkatının inkişafı üçün münbit şəraitin yaradılmasına dəstək vermək, milli-mənəvi dəyərlərimizə və ənənələrimizə yaxın olan könüllülüyün Azərbaycanda gündəlik həyat normasına çevrilməsinə nail olmaqdır.

# Göygöl və Maralgölə körpə forel balıqları buraxılıb

Ölkənin təbii su hövzələrində balıq populyasiyasının artırılması, təbii su hövzələrinin zənginləşdirilməsi və ekosistemin qorunması məqsədilə təbii sututarlarına balıq körpələrinin növbəti buraxılışı Göygöl Milli Parkının ərazisində keçirilib.



Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəis əvəzi Firuddin Əliyev AZƏRTAC-a bildirib ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, “Azforel” MMC-nin rəhbərliyinin və ictimaiyyət nümayəndələrinin iştirakı ilə körpə forel balıqları Göygöl və Maralgölə buraxılıb. Körpə balıqların göllərə buraxılışı ictimaiyyət nümayəndələri tərəfindən böyük maraqla qarşılanıb.

Balıq ehtiyatlarının artırılması və qorunmasının vacibliyinin təşviqi məqsədilə körpə balıqların təbii su hövzələrinə buraxılışı sentyabrın sonunadək davam edəcək.

Xidmət rəsmisi bütün balıq yetişdirən müəssisələri bu kimi aksiyalarda yaxından iştirak etməyə, ölkədə balıq ehtiyatlarının artırılmasına töhfə verməyə çağırıb.

## B İ L D İ R İ Ş

Dövlət Radiotezliklər İdarəsi tərəfindən 08.07.2020-ci il tarixdə nəqliyyat vasitələrinə illik texniki servis xidmətlərinin, sürtkü materiallarının, şinlərin, akkumulyatorların və ehtiyat hissələrinin açıq tender üsulu ilə satın alınmasına dair müsabiqədə “Auto Services” MMC qalib elan olunmuşdur.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*


# OXUCULARIN NƏZƏRİNƏ!

# “AZƏRBAYCAN”

***qəzetinə abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərmətbuatyayımı” ASC* | *(012) 440-46-94, (070) 244-17-34* |
| *“Azərpoçt” ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Qaya” firması* | *(012) 564-63-45, (050) 214-04-05* |
| *“Kaspi” MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |

3 aylıq
31,20 (otuz bir manat iyirmi qəpik) manat

1 aylıq
10,40 (on manat qırx qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti taxta, dikt və laminatların satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 18 sentyabr 2020-ci il saat 18:00-dəkdir.
Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).
Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Heydər Əliyev prospekti, 152, “Çinar plaza”, 24-cü mərtəbə.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1263.**

*Tender komissiyası*

## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti kapralon, ftroplast və teksolitlərin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 18 sentyabr 2020-ci il saat 18:00-dəkdir.
Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).
Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Heydər Əliyev prospekti, 152, “Çinar plaza”, 24-cü mərtəbə.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

*Tender komissiyası*

## Sumqayıt Şəhər İcra Hakimiyyəti “Mətbəə məhsulları üzrə xərclər” paraqrafı üzrə “Menyu blankı (tələbnamə)”, “Qeydiyyat kitablar üçün cədvəl”, “Baş kitab üçün cədvəl”, “Əmtəə material hesabları üzrə dövriyyə cədvəli - 4 vərəqli (forma №44, forma №45)”, “İnventarizasiya cədvəli - 4 vərəqli (forma №401)” və “Qeydiyyat üçün blank”ın kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (018) 655-44-18 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 22 sentyabr 2020-ci il tarixədək Sumqayıt şəhəri, Azərbaycan prospekti, 9 ünvanında qəbul olunur.

*Tender komissiyası*

## “Mingəçevir Şəhər Mərkəzi Xəstəxanası” Publik Hüquqi Şəxsi 2020-ci il üçün təkliflər sorğusu elan edir

Dəftərxana və təsərrüfat malları
Təkliflər sorğusu üzrə tələb edilən sənədlər 21 sentyabr 2020-ci il saat 16:00-dək qəbul edilir.
Təkliflər 22 sentyabr 2020-ci il saat 12:00-dək təqdim edilməlidir.
Zərflərin açılışı 22 sentyabr 2020-ci il saat 14:00-da olacaqdır.
Ünvan: Mingəçevir şəhəri, 20 Yanvar küçəsi, 12
Telefon: +994555004599; +994552041520

*Tender komissiyası*

15.08.2019-cu il tarixdə “AXDG” QSC-nin “ASCO Nəqliyyat” MMC-yə verilmiş EL-522/2019 nömrəli “Təhlükəli yüklərin nəqliyyat vasitələri ilə daşınması üzrə lisenziya” itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Sumqayıt Dövlət Universitetinin rektorluğu və kollektivi universitetin Azərbaycan və Şərqi Avropa Xalqları tarixi kafedrasının professoru Şirxan Səlimova bacısı
**RAMİLƏ SƏLİMOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 7572
Sifariş 2147
Qiyməti 40 qəpik